

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 33 (24.519)

29 avqust 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# 3 sentyabr 1991:



# Naxçıvandan başlanan xilaskarlıq missiyası, dövlətçilik tariximizin dönüş nöqtəsi

## Prezident İlham ƏLİYEV:

“

**Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvana həmişə böyük diqqət və qayğısı var idi. Bütün dövrlərdə siz bunu hiss edirdiniz. Xüsusilə 1990-cı illərin əvvəllərində naxçıvanlılar Heydər Əliyevi özünə rəhbər seçəndən sonra. Həmin ağır, çətin vəziyyətdə Naxçıvanda sabitliyin təmin olunması, Naxçıvanda inkişafın təmin olunması məhz Heydər Əliyevin və naxçıvanlıların birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Naxçıvanlılar bu çətin sınaqdan şərəflə çıxdılar və o illər ərzində təməli qoyulmuş layihələr, işlər bu gün öz bəhrəsini verməkdədir.**

”

Müasir Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və xalqın taleyinin həllində mühüm rola malik bir neçə tarixi mərhələ vardır ki, həmin mərhələlər bugünkü müstəqilliyimizin və tərəqqi yolumuzun dönüş nöqtələri hesab olunur. Bu dönəmlərdən birinin tərkib hissəsi kimi ölkəmizi əbədi müstəqilliyə qovuşdurmaq baxımından 1991-ci ilin 3 sentyabr təqvimi xüsusi önəm daşıyır. Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildiyi bu tarixi xalqımız öz xilasına aparan yolun başlanğıc günlərindən biri kimi, daim hörmət və ehtiramla xatırlayır. Həmin ictimai-siyasi hadisə Ulu Öndərin doğulub boya-başa çatdığı doğma Vətəni Naxçıvanın düşmən təhlükəsindən, aclıq, səfalət girdabından qurtuluşu istiqamətində atılan mütərəqqi addım olaraq da xarakterizə edilir. Tarixi prosesləri diqqətlə nəzərdən keçirəndə aydın olur ki, əslində, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətçiliyinin Naxçıvan salnaməsini bir qədər əvvəldən – 1990-cı ildən yazmağa başlamışdır...

1990-cı il iyulun 22-də doğma Vətəni – canı qədər sevdiyi Naxçıvana qayıdışı ilə Ümummilli Lider müasir, müstəqil Azərbaycan tarixinin ən önəmli səhifələrinin əbədiyaşar müəllifinə çevrildi. Qısa zamanda Naxçıvan milli azadlıq hərəkatının mərkəzi oldu, ölkəmizin müstəqilliyə doğru böyük dönüş yoluna məhz buradan qədəm qoyuldu. Ulu Öndər minlərlə naxçıvanlının coşqusu, sevgisi, məhəbbəti ilə 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Ən çətin, məsuliyyətli, eyni zamanda da qürurlu, şərəfli günlər, illər də bundan sonra başladı. Tariximizin qara səhifələrinin üzərindən əbədi xətt çəkilərək qızıl hərflərlə yeni, parlaq səhifələr yazıldı. Dahi şəxsiyyətin yuxusuz gecələrdə, çıraq işartısında işləyib hazırladığı və dövlətçiliyin hüquqi bazasını təşkil edən mühüm tarixi qərarlar xalqımızı, sözün əsl mənasında, gün işığına, aydın sabahlara çıxardı.

Ümummilli Lider 1990-1993-cü illərdə Azərbaycanın dövlətçilik tarixi üçün xüsusi önəm daşıyan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözlərinin çıxarılmasına, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Ali Məclis adlandırılmasına, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilməsinə və digər mütərəqqi addımların atılmasına nail oldu. Siyasi sabitliyə xidmət edən, ölkəmizi inamlı, etibarlı gələcəyə daşıyan vahid siyasi platformaya çevrilən Yeni Azərbaycan Partiyasını təsis etdi. Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və sovet ordu hissələri buradan çıxarıldı. Ulu Öndər Heydər Əliyev, həmçinin milli ideoloji məsələləri önə çəkərək bir sıra təxirəsalınmaz tədbirlər gördü və tarixi qərarlar qəbul etdi. İlk növbədə, 1990-cı il 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında Qərar qəbul olundu. Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əksini tapdı. Bununla yanaşı, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi barədə tarixi qərar da məhz dahi şəxsiyyəti yetişdirən torpaqda qəbul olundu. Bütün bunlarla yanaşı, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və tərəqqinin əldə olunması üçün əhəmiyyətli tədbirlər görüldü, eyni zamanda aqrar islahatlar reallaşdırıldı, infrastrukturun inkişafı yönündə xüsusi işlər həyata keçirildi.

ardı 2-ci səhifədə

# 3 sentyabr 1991:

## Naxçıvandan başlanan xilaskarlıq missiyası, dövlətçilik tariximizin dönüş nöqtəsi

(əvvəli 1-ci səhifədə)

Ümummilli Liderimiz Heydər Əliyevin doğma yurdu – Naxçıvanı qarşısında tarixi xidmətlərindən ən mühümü, sözsüz ki, onun muxtariyyətini qoruyub saxlamaq və işğaldan qurtarmaq idi. Muxtar respublikanı blokadanın yaratdığı ağır, dözülməz şəraitdən çıxarmaq, insanları aclıq, səfalət, qıtlıq məngənəsindən xilas etmək üçün gecəsini gündüzünə qatan Ulu Öndər çıxış yolunu məhz Türkiyə ilə əlaqələrin siyasi, iqtisadi cəhətdən daha da möhkəmləndirilməsində görürdü. Uzaqgörən siyasətçi bu məqsədlə 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfər etdi və səfər çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalandı. Qısa zamanda Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanıldı. Ümummilli Liderin qardaş ölkəyə səfərindən iki ay sonra, daha dəqiq desək, 1992-ci il mayın 28-də arzuların, ümidlərin çiçək açdığı həmin körpü istifadəyə verildi. Beləliklə də, vaxtilə iki qardaşı ayrı salan, həsrət yanğısı ilə əsib-coşan Araz çayı həmin qardaşların vüsalına, birliyinə də vəsilə oldu. İnsanların maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, qərbə inteqrasiyasına yol açan bu addım, eyni zamanda həmin dövrdə Sədərək gömrük-keçid məntəqəsinin fəaliyyətə başlamasına imkan yaratmaqla Naxçıvanın Türkiyənin yaxın vilayətləri ilə iqtisadi, ticarət əlaqələrinin genişlənməsinə, beynəlxalq daşımalara qoşularaq nəqliyyat imkanlarının artmasına da təkan verdi. Beləliklə, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizi müstəqilliyinə aparan yolun təməl daşlarının atıldığı türk torpağı Naxçıvanda həm də iki qardaş – Türkiyə və Azərbaycanın əlaqələrində yeni mərhələnin körpüsü salındı...

Ümummilli Liderimiz Heydər Əliyevin məhz Naxçıvandan başlanan xilaskarlıq yolu 1993-cü ildə ölkəmizi böyük qurtuluş yoluna çıxardı, bütün sahələrdə inkişaf, tərəqqi təmin olundu. Ulu Öndərin ideyalarına sədaqətin nəticəsidir ki, bu gün ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş, qalib ölkə kimi Azərbaycan beynəlxalq miqyasda əsl siyasi nüfuz, iradə sahibidir. Prezident İlham Əliyevin uzaqgörən, məharətli diplomatiyası sayəsində 2020-ci və 2023-cü illərdə döyüş meydanında qələbə çalan respublikamız 2025-ci ildə sülh arenasında da qalibiyyət əldə edib. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə olunan tarixi razılaşmalar regionda sülh və əməkdaşlıq üçün yeni perspektivlər yaradıb. Bu proses Naxçıvanın Azərbaycanın digər əraziləri ilə nəqliyyat əlaqəsinin təmin olunması və Zəngəzur dəhlizinin açılması baxımından da mühüm əhəmiyyət daşıyır. Gələcəkdə bu nəqliyyat bağlantısının reallaşması Naxçıvanın iqtisadi imkanlarının genişlənməsinə, tranzit və logistika potensialının artmasına, beynəlxalq və regional ticarət marşrutlarına daha fəal inteqrasiyasına yeni imkanlar açacaq. Beləliklə, vaxtilə blokadanın ağır şərtləri ilə üz-üzə qalan Naxçıvanın bu gün regional nəqliyyat və logistika qovşaqlarından birinə çevrilməsi perspektivi Ümummilli Lider Heydər Əliyevin illər əvvəl müəyyən etdiyi strateji baxışların zaman keçdikcə necə real imkanlara çevrildiyini göstərir...



### *Naxçıvan: yeni inkişaf mərhələsi və regional qovşağa çevrilən qədim diyar*

Naxçıvanın müasir inkişaf salnaməsində Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsi və müəyyən etdiyi strateji siyasi kurs müstəsna əhəmiyyət daşıyır. Bu möhkəm təməl üzərində 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət Naxçıvanın sosial-iqtisadi potensialının daha dolğun reallaşdırılmasına, regionun müasir çağırışlara uyğun inkişafının təmin edilməsinə geniş imkanlar açır. Son illərdə muxtar respublikada reallaşdırılan mühüm sosial, iqtisadi, enerji, nəqliyyat və infrastruktur layihələri Naxçıvanın simasını əhəmiyyətli dərəcədə dəyişməklə yanaşı, qədim diyarın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və Azərbaycanın regional inkişaf strategiyasında xüsusi mövqeyini daha da möhkəmləndirdiyini nümayiş etdirir. Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" isə bu inkişafın əsas istiqamətlərini müəyyənləşdirən mühüm yol xəritəsidir. Sənəddə iqtisadiyyatın şaxələndirilməsi, sənaye və kənd təsərrüfatının inkişafı, turizm, sosial sektor, insan kapitalı, enerji və infrastruktur təminatı üzrə mühüm hədəflər müəyyənləşdirilib.

Prezident İlham Əliyevin bu il avqustun 11-də dövlət başçısı kimi Naxçıvan Muxtar Respublikasına 17-ci səfəri qədim diyarın sosial-iqtisadi, enerji, nəqliyyat, infrastruktur və digər sahələr üzrə inkişafının daha da sürətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdı. Səfər çərçivəsində açılışı olan və təməli qoyulan genişmiqyaslı layihələr Naxçıvanın iqtisadi potensialının gücləndirilməsi, əhalinin rifahının yüksəldilməsi və muxtar respublikanın strateji mövqeyinin daha da möhkəmləndirilməsi istiqamətində qarşıya yeni hədəflər qoydu.

Naxçıvanın iqtisadi gələcəyində sənayeləşmə xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin səfəri zamanı Naxçıvan Sənaye Parkının təməlinin qoyulması yeni istehsal sahələrinin, müasir texnologiyaların və sahibkarlıq imkanlarının inkişafı baxımından mühüm addımdır. Gələcəkdə burada istehsal olunan məhsulların regional və xarici bazarlara çıxarılması üçün də daha əlverişli şərait yarana bilər. Digər mühüm istiqamət isə enerjidir. Naxçıvanın "yaşıl enerji zonası"na çevrilməsi günəş və külək potensialından daha səmərəli istifadə etməyə imkan verir. Günəş elektrik stansiyalarının tikintisi, elektrik şəbəkələrinin yenilənməsi və yeni generasiya güclərinin yaradılması Naxçıvanın enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, gələcəkdə enerji ixracı üçün də imkanlar yaradacaq.

Prezidentin 17-ci səfəri Naxçıvanın sosial inkişafı baxımından da mühüm hadisələrlə yadda qaldı. Sosial mənzil kompleksinin təməlinin qoyulması, Naxçıvan Regional DOST Mərkəzinin açılması, yeni infrastruktur layihələri, "yaşıl nəqliyyat"a keçid dövlət siyasətində insan amilinin əsas prioritetlərdən biri olduğunu göstərir. Şəhərin 2044-cü ilədək inkişafına dair Baş planı isə Naxçıvanın gələcəyinin uzunmüddətli və sistemli şəkildə planlaşdırıldığını göstərir.

Səfərin ardınca Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində daha bir mühüm qərarın qəbul edilməsi dövlət dəstəyinin ardıcıl xarakterini nümayiş etdirir. Prezident İlham Əliyevin Sərəncamı ilə Naxçıvanın inkişafına 258 milyon manat vəsaitin ayrılması 2023-2027-ci illər üçün Dövlət Proqramı çərçivəsində həyata keçirilən tədbirlərin davamı olmaqla qarşıdakı illər üçün yeni inkişaf imkanları yaradır. Ayrılan vəsait hesabına 2026-2027-ci illərdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, yol-nəqliyyat və təhsil infrastrukturunun yenilənməsi, abadlıq-quruculuq işlərinin davam etdirilməsi nəzərdə tutulur. 15,6 meqavat gücündə su elektrik stansiyasının tikintisinin davam etdirilməsi Naxçıvanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və "yaşıl enerji zonası" siyasətinin həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda 420 kilometr kəndlərarası, şəhər və kənd yollarının əsaslı təmiri, şəhərlərarası ictimai nəqliyyat parkının yenilənməsi, Naxçıvan Dövlət Universiteti üçün 1000 yerlik tələbə yataqxanasının və 640 nəfərlik beş yeni uşaq bağçasının tikintisi sosial rifah və insan kapitalının inkişafına yönəlmiş mühüm addımlardır. 161 yaşayış binasının və istilik qazanxanalarının əsaslı təmiri isə minlərlə ailənin yaşayış şəraitinin yaxşılaşdırılmasına və kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsinə imkan verəcək. Beləliklə, 258 milyon manatlıq yeni maliyyə paketi enerji, nəqliyyat, təhsil, sosial və kommunal sahələri əhatə etməklə Naxçıvanın kompleks inkişafına əlavə təkan verəcək.

Naxçıvanın perspektivlərini müəyyənləşdirən əsas amillərdən biri də onun əlverişli coğrafi mövqeyidir. Ermənistan, Türkiyə və İranla sərhəddə yerləşən muxtar respublika gələcəkdə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının mühüm qovşaqlarından birinə çevriləcək. Bu baxımdan, Zəngəzur dəhlizinin reallaşması perspektivində Naxçıvanda dəmir yolu infrastrukturunun yenilənməsi xüsusi əhəmiyyət daşıyır. Layihələndirilən xəttin uzunluğunun, təxminən, 194 kilometr olması və gələcəkdə illik yükdaşıma imkanının 15 milyon tona çatdırılmasının nəzərdə tutulması Naxçıvanın tranzit və logistika potensialının miqyasını göstərir. Bu imkanlar yalnız yükdaşımaları deyil, logistika, anbar, gömrük, ticarət və xidmət sahələrinin inkişafını da stimullaşdıracaq.

Zəngəzur dəhlizi layihəsi (TRIPP) Azərbaycanın digər bölgələri ilə Naxçıvan arasında birbaşa quru əlaqəsinin yaradılması və regionun beynəlxalq nəqliyyat sisteminə daha sıx inteqrasiyası baxımından mühüm perspektivlər açır. Bütün bu layihələrin reallaşması Naxçıvanın uzun illər mövcud olmuş coğrafi təcridinin aradan qalxmasına və onun tranzit üstünlüyə çevrilməsinə şərait yaradacaq. Beləliklə, Naxçıvan üçün qarşıdakı mərhələni "blokadadan tranzitə", "sərhəd bölgəsindən regional qovşağa", "istehlak bazarından istehsal və logistika mərkəzinə" keçid kimi xarakterizə etmək olar. Nəqliyyat, sənaye və enerji layihələrinin bir-birini tamamlaması regionda yeni iqtisadi ekosistemin formalaşmasına imkan verəcək.

Ümumilikdə, onu vurğulamaq olar ki, Naxçıvanda həyata keçirilən layihələr regionun sosial-iqtisadi, infrastruktur və strateji inkişafını əhatə edən vahid dövlət siyasətinin tərkib hissəsidir. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik və inkişaf xəttinin Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun şəkildə davam etdirilməsi Naxçıvanın yeni inkişaf mərhələsində də öz aydın ifadəsini tapır. Vaxtilə coğrafi mövqeyinin yaratdığı məhdudiyyətlərlə üzləşən Naxçıvan bu gün həmin mövqeni strateji üstünlüyə çevirmək mərhələsinə qədəm qoyur. Nəqliyyat bağlantılarının genişləndirilməsi, sənaye və logistika imkanlarının artırılması, "yaşıl enerji" layihələrinin reallaşdırılması, eləcə də sosial infrastrukturun müasirləşdirilməsi Naxçıvanın iqtisadi potensialının daha geniş miqyasda reallaşdırılmasına mühüm zəmin yaradır. Xüsusilə regional nəqliyyat dəhlizlərinin inkişafı Naxçıvanın yalnız Azərbaycanın iqtisadi məkanında deyil, daha geniş Avrasiya nəqliyyat sistemində əhəmiyyətli mövqe qazanması üçün yeni perspektivlər açır. Bu baxımdan, qarşıdakı dövrdə Naxçıvandan keçəcək yük axınının həcminin artması, yeni nəqliyyat bağlantılarının formalaşması və logistika imkanlarının genişlənməsi regionda iqtisadi fəallığın yüksəlməsinə, yeni iş yerlərinin yaranmasına və Naxçıvanın mühüm nəqliyyat qovşaqlarından birinə çevrilməsinə imkan verəcək. Prezident İlham Əliyevin 17-ci səfərin yekunlarına dair Naxçıvanda Azərbaycan Televiziyasına müsahibəsində dediyi kimi: ***"Ona görə bu gün strateji nöqteyi-nəzərindən, bundan əvvəl dediyim amillərlə yanaşı, bu amil də çox önəmli rol oynayır. Əlbəttə ki, buradan keçən tutaq ki, 15 milyon ton, bəlkə daha çox yük daha böyük canlanmaya gətirib çıxaracaq. Daha çox iş yerləri açılacaq, iqtisadi fəallıq artacaq və Naxçıvan deyə bilərəm ki, əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir. Bu, tam mümkündür".***

**Nail ƏSGƏROV**

# Azərbaycan-Özbəkistan:



## əbədi dostluq və strateji müttəfiqlik üzərində yüksələn regional güc birliyi

Azərbaycan və Özbəkistan arasında münasibətlər son illərdə keyfiyyətcə yeni mərhələyə yüksəlib. Tarixi, milli-mədəni və mənəvi yaxınlıq üzərində formalaşan əlaqələr ticarət, investisiya, nəqliyyat, sənaye, enerji, kənd təsərrüfatı və turizm kimi çoxsaylı istiqamətlərdə konkret layihələrlə möhkəmlənir. Bu mənada, Azərbaycan-Özbəkistan münasibətləri Türk dünyasında strateji müttəfiqliyin real iqtisadi məzmun qazanan nümunələrindən birinə çevrilir.

İki ölkə arasında münasibətlərin bugünkü dinamikasını şərtləndirən əsas amillərdən biri qarşılıqlı siyasi etimad və dövlət başçıları arasında formalaşmış möhkəm əməkdaşlıq iradəsidir. 2024-cü ilin avqustunda Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri, 2025-ci ilin iyulunda isə Özbəkistan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı imzalanan sənədlər, xüsusilə "Strateji tərəfdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə" və "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" əlaqələrin hüquqi və siyasi əsaslarını daha da möhkəmləndirib. Beləliklə, illər ərzində formalaşan qarşılıqlı etimad rəsmi şəkildə strateji müttəfiqlik müstəvisinə keçib.

Avqustun 23-də Prezident İlham Əliyevin Özbəkistana səfəri isə bu ardıcıl siyasətin növbəti mühüm mərhələsi kimi diqqəti cəlb edir. Daşkənddə keçirilən yüksəksəviyyəli görüşlər və aparılan danışıqlar iki ölkə arasında mövcud potensialın daha geniş miqyasda reallaşdırılması, iqtisadi əməkdaşlığın yeni istiqamətlər üzrə dərinləşdirilməsi və qarşılıqlı faydalı layihələrin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə imzalanan sənədlər ikitərəfli münasibətlərin strateji müttəfiqlikdən daha geniş və institusional əməkdaşlıq mərhələsinə keçdiyini göstərir. Xüsusilə "Əbədi dostluq haqqında Müqavilə", ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard dollara çatdırılması proqramı, investisiya və ticarət üzrə Yol Xəritəsi, eləcə də turizm, mədəniyyət, sosial təminat və diplomatik əməkdaşlıq sahələrində imzalanan sənədlər əlaqələrin uzunmüddətli və çoxşaxəli xarakterini nümayiş etdirir. Naxçıvan, Xankəndi və Laçın şəhərlərinin Özbəkistanın Ürgənc və Buxara şəhərləri ilə qardaşlaşma münasibətləri qurması isə əməkdaşlığın yalnız dövlətlərarası səviyyə ilə məhdudlaşmadığını, şəhərlər və regionlar arasında da yeni əlaqələrin formalaşdığını göstərən mühüm addımdır. Dövlət başçılarının qarşılıqlı şəkildə ən yüksəksəviyyəli ordenlərlə – "Heydər Əliyev" və "Dostluq" ordenləri ilə təltif olunması isə iki ölkə liderləri arasında qarşılıqlı hörmət və etimadın mühüm siyasi və mənəvi ifadəsidir.

Azərbaycan-Özbəkistan əməkdaşlığının əsas xüsusiyyətlərindən biri siyasi razılaşmaların getdikcə konkret iqtisadi və investisiya layihələrinə çevrilməsidir. Avqustun 23-də prezidentlərin Azərbaycanın Özbəkistanda həyata keçirdiyi layihələrin açılış və təməlqoyma mərasimlərində onlayn formatda iştirakı da bunu aydın şəkildə göstərdi. Bankçılıq, sənaye, təhsil, energetika və yanacaq infrastrukturu, şəhərsalma, turizm, mədən sənayesi və kənd təsərrüfatı kimi müxtəlif sahələri əhatə edən layihələr əməkdaşlığın artıq ənənəvi ticarət əlaqələrindən daha geniş məzmun qazandığını göstərir. Başqa sözlə, siyasi səviyyədə əldə olunan razılaşmalar real iqtisadi təşəbbüslərlə tamamlanır.

Prezident İlham Əliyevin səfər çərçivəsində tanış olduğu Özbəkistanın ən böyük şəhərsalma layihəsi – "Yeni Daşkənd" də bu əməkdaşlığın yeni istiqamətlərindən birini nümayiş etdirir. Layihə yalnız yeni yaşayış və inzibati məkanın yaradılmasını deyil, iqtisadiyyat, nəqliyyat, təhsil, elm, turizm, ekologiya və rəqəmsal texnologiyaların vahid şəhər mühitində birləşdirilməsini nəzərdə tutur. Layihənin 260



mindən çox yeni iş yeri yaratması onun Özbəkistan iqtisadiyyatı üçün əhəmiyyətli məşğulluq və investisiya potensialına malik olduğunu göstərir.

Yeni Daşkənddə "Azərbaycan" parkının təməlinin qoyulması isə ikitərəfli münasibətlərin yalnız siyasi və iqtisadi deyil, mədəni-humanitar müstəvidə də dərinləşdiyini göstərən mühüm rəmzdir. Bakıda "Özbəkistan", Yeni Daşkənddə "Azərbaycan" parklarının yaradılması iki qardaş xalqın tarixi-mədəni bağlılığını və qarşılıqlı hörmətini şəhər məkanında əbədiləşdirən simvolik addımdır. Bu cür təşəbbüslər ortaq dəyərlərin gələcək nəsillərə ötürülməsi və xalqlar arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə açılışı keçirilən Nizami Gəncəvi adına Milli Pedaqoji Universiteti də iki ölkə arasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın strateji xarakterini nümayiş etdirir. Universitetin dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıması və açılışında hər iki ölkənin dövlət başçısının iştirakı Nizami irsinə verilən yüksək dəyərin göstəricisidir.

Universitetin Azərbaycan ali təhsil müəssisələri ilə əməkdaşlığı, tələbə və müəllim mübadiləsi, birgə elmi layihələrin həyata keçirilməsi, eləcə də Füzulidəki Mirzə Uluqbəy adına məktəbin məzunlarına yaradılan imkanlar təhsil sahəsində əlaqələrin genişləndirilməsi ilə yanaşı, iki ölkənin gənc nəsilləri arasında qarşılıqlı əlaqələrin gücləndirilməsinə də xidmət edir.

Ölkələr arasındakı möhkəm siyasi baza iqtisadi əlaqələrin sürətli inkişafı üçün də əlverişli şərait yaradıb. Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin 2025-ci ildə əvvəlki illə müqayisədə üç dəfədən çox artaraq 795 milyon dollara çatması bunun bariz göstəricisidir. 2026-cı ilin yanvar-may aylarında isə qarşılıqlı ticarət dövriyyəsinin daha 33 faiz artaraq 144 milyon dollar təşkil etməsi iqtisadi əlaqələrin yüksələn dinamikanı qoruduğunu göstərir. Bu göstəricilər 2030-cu ilədək 1 milyard dollarlıq ticarət dövriyyəsinə çatmaq hədəfinin real iqtisadi potensiala söykəndiyini deməyə əsas verir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında Özbəkistanın iştirakı isə iqtisadi əməkdaşlığa xüsusi mənəvi və siyasi məzmun qazandırır. Füzuli rayonunda 100 hektar ərazidə "Dostluq bağı" adı ilə nar bağının salınması, Füzulidə Mirzə Uluqbəy adına məktəbin tikilməsi və Xankəndidə tikiş fabrikinə investisiya qoyulması Özbəkistanın Azərbaycanın "Böyük Qayıdış" proqramına və bərpa-quruculuq prosesinə verdiyi dəstəyin konkret nümunələridir. Burada söhbət təkcə

*ardı 4-cü səhifədə*

investisiyadan getmir. Bu layihələr iki ölkə arasında strateji müttəfiqliyin real ərazilərdə və insanların həyatında özünü göstərən nəticələridir. Prezident İlham Əliyev avqustun 23-də Daşkənddə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə mətbuata birgə bəyanatında bu məsələyə xüsusi diqqət çəkərək Prezident Mirziyoyevin Qarabağa investisiyaların cəlb edilməsində müstəsna rolunu vurğulayıb. Sitat: ***"Əlbəttə, Prezident Şavkat Miromonoviç Mirziyoyevin Qarabağa investisiya cəlb edilməsində müstəsna rolunu bir daha qeyd etmək istərdim. İlk yardım – Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəbin tikintisi və Xankəndidə tikiş fabrikinə investisiyalar Özbəkistandan gəldi. İlk böyük sənaye müəssisəsi də Özbəkistanla bağlıdır. Həm Qarabağ bölgəsində, həm də bir çox digər bölgələrdə əlavə qarşılıqlı fəaliyyət planları mövcuddur. Həmçinin diqqətəlayiqdir ki, bu gün bir çox layihənin, – düşünürəm ki, on, bəlkə də, daha çox, – açılışı və ya təməlinin qoyulması ilə bağlı tədbirlər zamanı regional layihələr də olub".***



Ümumilikdə, avqustun 23-də Prezident İlham Əliyevin Özbəkistana səfəri, Daşkənddə keçirilən yüksəksəviyyəli görüşlər, Ali Dövlətlərarası Şuranın 3-cü iclası və imzalanan sənədlər Azərbaycan-Özbəkistan münasibətlərinin ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdiyini bir daha nümayiş etdirdi. Bu münasibətlərin əsas xüsusiyyəti ondan ibarətdir ki, tarixi dostluq və qardaşlıq artıq yalnız mənəvi-siyasi müstəvidə deyil, iqtisadi, investisiya, nəqliyyat, enerji, sənaye, təhsil və humanitar əməkdaşlıqda da konkret məzmun qazanır. Qarşılıqlı investisiyaların artırılması, Orta Dəhlizin inkişafı, "yaşıl enerji", sənaye kooperasiyası və Qarabağın bərpasında əməkdaşlıq bu tərəfdaşlığın praktiki istiqamətlərini müəyyənləşdirir.

Bu baxımdan, Azərbaycan-Özbəkistan münasibətlərini fərqləndirən əsas cəhət siyasi iradə ilə iqtisadi imkanların, tarixi bağlılıqla müasir strateji maraqların bir-birini tamamlamasıdır. İki ölkə arasında formalaşan bu model təkcə ikitərəfli münasibətlərin deyil, bütövlükdə, Türk dünyasında regional əməkdaşlığın yeni imkanlarının göstəricisidir.

Daşkənddə atılan yeni addımlar bir daha göstərir ki, Azərbaycan və Özbəkistan arasında əbədi dostluq möhkəm siyasi iradə, qarşılıqlı etimad və ortaq maraqlar üzərində yeni məzmun qazanır. Bu münasibətlər artıq yalnız keçmişdən gələn qardaşlıq bağlarının deyil, gələcəyə hesablanmış strateji tərəfdaşlığın da ifadəsidir.

**Nail ƏSGƏROV**

# Daşkənd dialoqu: strateji müttəfiqliyin iqtisadi və regional ölçüləri



Avqustun 23-də Daşkənddə keçirilən Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclası iki ölkə arasında münasibətlərin artıq konkret layihələr və qarşılıqlı maraqlar əsasında inkişaf etdiyini bir daha nümayiş etdirdi. Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyevin iştirakı ilə keçirilən iclasda səsləndirilən fikirlər göstərdi ki, Azərbaycan-Özbəkistan əməkdaşlığı yalnız mövcud əlaqələrin qorunub saxlanılması ilə məhdudlaşmır, yeni iqtisadi və geosiyasi imkanların formalaşdırılmasına istiqamətlənir. Xüsusilə investisiya, sənaye, nəqliyyat, kənd təsərrüfatı, turizm və Qarabağın bərpası istiqamətlərində həyata keçirilən layihələr münasibətlərin praktiki məzmununu daha da gücləndirir. Bu baxımdan, Azərbaycan-Özbəkistan İnvestisiya Fondu xüsusi əhəmiyyət daşıyır. Fondun 500 milyon dollarlıq potensialının artıq 160 milyon dollarlıq hissəsinin müəyyənləşdirilməsi qarşıdakı dövrdə yeni layihələrin maliyyələşdirilməsi üçün ciddi imkanlar yaradır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, iki ölkənin nəzərdə tutduğu layihələrin ümumi investisiya portfeli fondun ilkin həcmindən əhəmiyyətli dərəcədə çoxdur: ***"Mənə məruzə ediblər ki, 500 milyon dollardan, təxminən, 160 milyonu artıq müəyyənləşdirilib. Təbii ki, düşünürəm, biz bu vəsaiti tezliklə istifadə edəcəyik və əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirəcəyik. Həmçinin deməliyəm ki, Azərbaycanın müxtəlif ölkələrlə bu cür əməkdaşlıq formatları var. Amma mən deyərdim ki, ən səmərəli və nəticəyönümlü fond məhz Özbəkistan-Azərbaycan İnvestisiya Fondudur. Lakin bizim nəzərdə tutduğumuz və artıq müqavilələri bağlanmış layihələr üzrə investisiyaların həcmi fondun həcmindən xeyli çoxdur. Bu təqdimatda deyildi ki, təkcə Özbəkistanın turizm sektoruna 5 milyard dollar investisiya yatırılması planlaşdırılır".***

İqtisadi tərəfdaşlığın digər mühüm istiqaməti sənaye kooperasiyasıdır. Özbəkistanın avtomobil sənayesində formalaşdırdığı təcrübənin Azərbaycana ötürülməsi artıq konkret nəticələr verir. Hacıqabulda ikinci avtomobil zavodunun tikintisi və burada 80 milyon dollardan çox investisiyanın nəzərdə tutulması iki ölkənin sənaye imkanlarının birləşdirilməsinin uğurlu nümunəsidir. Bu cür layihələr yalnız istehsalın artırılmasına deyil, yeni iş yerlərinin yaradılmasına, texnologiya və təcrübə mübadiləsinin genişləndirilməsinə də xidmət edir.

Nəqliyyat və tranzit sahəsində əməkdaşlıq isə iki ölkənin coğrafi mövqeyinin yaratdığı imkanları daha geniş regional layihələrlə əlaqələndirir. Özbəkistanın Azərbaycan ərazisindən keçən yüklərinin artması Orta Dəhlizin əhəmiyyətinin yüksəldiyini göstərir. Azərbaycan bu baxımdan Mərkəzi Asiya ilə Avropa arasında mühüm tranzit qovşaqlarından biri kimi çıxış edir. Bu perspektivdə Zəngəzur dəhlizi və Naxçıvan dəmir yolu xüsusi strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyev Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclasında Azərbaycanın əsas hissəsində bu layihə üzrə işlərin gələn il başa çatacağını vurğulayıb, Naxçıvan Muxtar Respublikasında da müvafiq işlərə başlanıldığını diqqətə çatdırıb: ***"Məlumat üçün bildirmək istəyirəm ki, Ermənistanda da işlər gedir, amerikalı tərəfdaşlarımız bizi bu barədə müntəzəm məlumatlandırırlar. Bizə deyilənlərə görə, Ermənistan ərazisində tikinti ya bu ilin sonunda, ya da gələn ilin əvvəlində başlayacaq. Lakin oradakı məsafə cəmi 42 kilometrdir, Naxçıvan Muxtar Respublikasının ərazisində isə 194 kilometrdir. Bəli, buna görə də işə başladıq, bütün hallarda onu tamamlayacağıq. Amma müxtəlif şirkətlərdən maraq olduğunu bildiyimiz üçün, sadəcə, məlumat vermək istərdim ki, əgər maraq varsa, təklif olunan konsorsiumda iştirak etmək imkanı mövcuddur".***

İclasda vurğulanan digər mühüm məqam Azərbaycan-Özbəkistan münasibətlərində qarşılıqlı siyasi dəstəyin xüsusi yer tutmasıdır. Hər iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini dəstəkləməsi, Azərbaycanın Cənubi Qafqazda sülh gündəliyinə Özbəkistanın verdiyi siyasi dəstək, eləcə də Mərkəzi Asiya ölkələrinin Məşvərət Görüşündə Azərbaycanın tamhüquqlu üzv kimi iştirakına Daşkəndin verdiyi töhfə münasibətlərin strateji xarakterini təsdiqləyən mühüm amillərdəndir.

Azərbaycanın Mərkəzi Asiya ilə əlaqələrinin genişlənməsində Özbəkistanın xüsusi rolu var. Eyni zamanda Azərbaycan da Orta Dəhliz, nəqliyyat-kommunikasiya layihələri, enerji və ticarət imkanları vasitəsilə Mərkəzi Asiya dövlətlərinin dünya bazarlarına çıxışında mühüm tərəfdaş kimi çıxış edir. Bu baxımdan, Bakı ilə Daşkənd arasında münasibətlər yalnız ikitərəfli əməkdaşlıq çərçivəsində deyil, daha geniş regional inteqrasiya proseslərinin mühüm elementlərindən biri kimi qiymətləndirilə bilər.

Nəticə etibarilə, Azərbaycan və Özbəkistan arasında münasibətlər siyasi iradə, qarşılıqlı etimad və konkret iqtisadi layihələr üzərində daha da möhkəmlənir. İnvestisiya fondunun fəaliyyəti, sənaye kooperasiyası, Qarabağın bərpasına dəstək, tranzit daşımalarının artırılması, Zəngəzur dəhlizi və Naxçıvan dəmir yolu layihələri bu tərəfdaşlığın real nəticələrini nümayiş etdirir. Daşkənddə keçirilən Ali Dövlətlərarası Şuranın 3-cü iclası göstərir ki, Azərbaycan-Özbəkistan əlaqələri artıq ənənəvi dostluq münasibətlərindən daha geniş məzmun kəsb edir. Qarşılıqlı investisiyalar, nəqliyyat bağlantıları, istehsal layihələri və regional əməkdaşlıq perspektivləri iki ölkəni strateji tərəfdaşlıq müstəvisində daha da yaxınlaşdıran əsas amillərdir. Qarşıdakı dövrdə yeni layihələrin həyata keçirilməsi ilə bu münasibətlərin həm Azərbaycan və Özbəkistanın iqtisadi inkişafına, həm də bütövlükdə, Türk dünyasının iqtisadi və siyasi gücünün artırılmasına mühüm töhfə verəcəyi gözlənilir.

**Nail ƏSGƏROV**





# Azərbaycan-Özbəkistan:

## qarşılıqlı hörmət və etimada əsaslanan əbədi dostluq

Azərbaycanla Özbəkistanı bir-birinə bağlayan münasibətlər, sadəcə, iki dövlət arasında diplomatik əlaqələrlə məhdudlaşmır. Bu münasibətlərin kökündə ortaq tarix, dil və mədəniyyət yaxınlığı, milli-mənəvi dəyərlər, qarşılıqlı hörmət və ən əsası, əsrlərin sınağından çıxmış qardaşlıq dayanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 23-də Özbəkistana dövlət səfəri və bu dostluğun müasir mərhələdə hansı yüksək səviyyəyə çatdığını bir daha nümayiş etdirdi. Dövlətimizin başçısının səfər zamanı səsləndirdiyi fikirlər Azərbaycan xalqının Özbəkistana və qardaş özbək xalqına bəslədiyi səmimi münasibətin ifadəsi idi. Bu münasibətin arxasında yalnız tarixi yaxınlıq deyil, həm də bu günün reallıqları, qarşılıqlı etimad və gələcəyə hesablanmış strateji baxış dayanır.

Bu gün Daşkəndin və bütövlükdə, Özbəkistanın simasında sürətlə dəyişən, inkişaf edən, öz potensialını ardıcıl şəkildə reallaşdıran güclü dövlət görürük. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu yüksəliş həm iri layihələrdə, həm şəhərlərin simasında, həm də sosial-iqtisadi həyatın bütün sahələrində açıq şəkildə hiss olunur.

Əsl dostluğun ən mühüm xüsusiyyəti dostunun uğuruna öz uğurun kimi sevinməkdir. Azərbaycan Özbəkistanın qazandığı nailiyyətlərə məhz bu mövqedən yanaşır. Çünki güclü Özbəkistan yalnız özbək xalqının deyil, bütövlükdə, Türk dünyasının güclənməsi deməkdir. Eyni zamanda güclü Azərbaycan da Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında yeni siyasi, iqtisadi və nəqliyyat körpülərinin formalaşmasına xidmət edir.

Bu gün iki ölkə münasibətlərinin ən mühüm xüsusiyyətlərindən biri qardaşlıq əlaqələrinin konkret iqtisadi məzmunla tamamlanmasıdır. Artıq Azərbaycan və Özbəkistan arasında bir milyard dollarlıq ticarət dövriyyəsi uzaq perspektiv deyil, yaxın illərdə əldə olunması real görünən hədəf kimi qiymətləndirilir. Qarşılıqlı investisiyalar, yeni istehsal sahələri və birgə layihələr münasibətlərin iqtisadi dayaqlarını daha da möhkəmləndirir. Əslində, bu proses daha geniş bir reallığın tərkib hissəsidir. Prezident İlham Əliyevin Mərkəzi Asiya və Azərbaycanı "vahid geosiyasi və geoiqtisadi region" kimi xarakterizə etməsi də bu reallığı ifadə edir. Azərbaycan artıq Mərkəzi Asiyanın türk dövlətləri ilə yalnız tarixi və mədəni bağlarla deyil, nəqliyyat dəhlizləri, enerji layihələri, investisiya əlaqələri və ortaq siyasi maraqlarla da sıx şəkildə bağlıdır.

Azərbaycan-Özbəkistan əməkdaşlığının miqyası isə bu yeni reallığın ən bariz nümunələrindən biridir. Enerji və nəqliyyatdan turizmə, dağ-mədən sənayesindən avtomobil istehsalına, kənd təsərrüfatından bank sektoruna qədər geniş sahələri əhatə edən əməkdaşlıq artıq kompleks xarakter daşıyır. Azərbaycan banklarının Özbəkistan bazarına çıxışı, SOCAR-ın bu ölkənin pərakəndə satış sektorunda fəaliyyətə başlaması, neft və qaz kəşfiyyatı ilə bağlı layihələrin irəliləməsi münasibətlərin iqtisadi baxımdan nə qədər böyük perspektivə malik olduğunu göstərir.

Lakin iki xalqın münasibətlərini fərqləndirən əsas cəhət rəqəmlərdən və iqtisadi göstəricilərdən daha böyükdür. Bu münasibətlər Prezident İlham Əliyevin sözləri ilə desək, həm mənəvi, həm də maddi təməl üzərində qurulub. Dünya siyasətində məhz belə bir sintezə nadir hallarda rast gəlinir. Azərbaycan və Özbəkistan nümunəsində tarixi qardaşlıq müasir siyasi və iqtisadi əməkdaşlıqla tamamlanır.

Bu dostluq paytaxtlarla da məhdudlaşmır. Bakı ilə Daşkənd arasında yaradılan yüksəksəviyyəli münasibətlər getdikcə regionlara, şəhərlərə, iqtisadi subyektlərə və insanlar arasında əlaqələrə də təsir edir. Regionlararası əməkdaşlıq forumları, birgə investisiya fondu, turizm və avtomobil sənayesinə yatırımlar göstərir ki, qarşıdakı mərhələdə Azərbaycan-Özbəkistan əməkdaşlığının iqtisadi miqyası daha da genişlənəcək.

Azərbaycan xalqı Özbəkistanın qardaşlığını ən həssas və tarixi məqamlarda da hiss edib. Qarabağın bərpasında Özbəkistanın nümayiş etdirdiyi mövqe bunun ən parlaq nümunələrindəndir. Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəbin tikilməsi Azərbaycan-Özbəkistan qardaşlığının azad edilmiş torpaqlarımızda ucaldılmış abidəsidir. Xankəndidə tikiş fabrikinə Özbəkistan investisiyasının yönəldilməsi, Qarabağda ilk böyük sənaye müəssisələrindən birinin qardaş ölkə ilə bağlı olması da bu həmrəyliyin iqtisadi məzmun qazandığını göstərir.

Bütün bunların arxasında isə qarşılıqlı etimad dayanır. İnvestisiya həm də güvənin göstəricisidir. Dövlətimizin başçısının vurğuladığı kimi, investisiyalar, adətən, dost, bizim vəziyyətimizdə isə qardaş ölkələrə yatırılır. Azərbaycan və Özbəkistanın bir-birinin iqtisadiyyatına artan marağı məhz siyasi sabitliyin, qarşılıqlı inamın və uzunmüddətli tərəfdaşlıq iradəsinin nəticəsidir.

Prezident İlham Əliyevlə Prezident Şavkat Mirziyoyev arasında formalaşmış şəxsi dostluq da dövlətlərarası münasibətlərin inkişafına xüsusi dinamika verir. Dövlət başçılarının bir-birinə ali dövlət mükafatlarını – "Dostluq" və "Heydər Əliyev" ordenlərini təqdim etməsi münasibətlərin siyasi və mənəvi səviyyəsini simvolik şəkildə ifadə edən mühüm hadisə oldu. Bu iki ölkə arasında mövcud münasibətlərin yalnız dövlətlərarası deyil, həm də liderlər səviyyəsində möhkəm qarşılıqlı etimada söykəndiyini göstərir.

Bu gün Azərbaycan və Özbəkistan münasibətlərinin qarşısında yeni üfüqlər açılır. Türk dünyasının inteqrasiyası güclənir, Şərqlə Qərbi birləşdirən nəqliyyat marşrutlarının əhəmiyyəti artır, Mərkəzi Asiya ilə Azərbaycan arasında iqtisadi və siyasi bağlar yeni mərhələyə qədəm qoyur.

Əbədi dostluğun gücü də məhz bundadır: zaman dəyişir, geosiyasi reallıqlar yenilənir, əməkdaşlığın istiqamətləri genişlənir, lakin Azərbaycanla Özbəkistanı birləşdirən qardaşlıq daha da möhkəmlənərək yeni məzmun qazanır. Bu münasibətlər bundan sonra da xalqlarımızın rifahına iki dövlətin birgə inkişafına və bütövlükdə, Türk dünyasının güclənməsinə mühüm töhfələr verəcəkdir.

**Əziz QASIMOV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

# Nizaminin söz işığında Türk dünyasının gələcəyinə



Bəzən bir səfər yalnız dövlətlərarası münasibətlərin növbəti səhifəsi deyil, tarixin dərin qatlarından gələn bağların yenidən üzə çıxması, xalqları birləşdirən mənəvi dəyərlərin yeni məzmun qazanmasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri və avqustun 23-də Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılış mərasimində iştirakı da bu baxımdan mühüm siyasi, mədəni və mənəvi məna daşıyır.

Daşkənddə Nizami adının elm və təhsil ocağında yaşadılması təsadüfi seçim deyil. Bu, Azərbaycan və Özbəkistan xalqları arasında əsrlərdən gələn mənəvi yaxınlığın, ortaq dəyərlərə bağlılığın və gələcəyə yönəlmiş qardaşlıq münasibətlərinin rəmzidir. Gəncədə doğulan dahi Nizami Gəncəvinin adının Özbəkistanın paytaxtında fəaliyyət göstərən universitetdə yaşadılması iki xalqın tarixi yaddaşına yeni və əlamətdar səhifə əlavə edir.

Nizami Gəncəvi Azərbaycan ədəbiyyatının və dünya ədəbi-fəlsəfi düşüncəsinin böyük simalarından biridir. Onun yaradıcılığında elm, ədalət, insanlıq, mərifət və mənəvi kamillik ideyaları xüsusi yer tutur. Əsrlər keçsə də, bu ideyalar öz aktuallığını qoruyur. Buna görə Nizami irsinin qorunması, öyrənilməsi və dünyada təbliği Azərbaycan dövlətinin milli-mədəni siyasətinin mühüm istiqamətlərindən biridir.

Prezident İlham Əliyevin diqqəti və təşəbbüsü ilə bu istiqamətdə mühüm layihələr həyata keçirilib. 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan edilməsi dahi şairin irsinə verilən yüksək qiymətin bariz nümunəsi oldu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi isə şairin irsinin öyrənilməsi və təbliği ilə yanaşı, sülh, dialoq, tolerantlıq və mədəniyyətlərarası anlaşmaya xidmət edən nüfuzlu beynəlxalq platformaya çevrilib.

Daşkənddə Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin yaradılması həmin mənəvi xəttin təhsil müstəvisində davamıdır. Universitetin pedaqoji kadrların hazırlanmasına yönəlməsi isə xüsusi məna daşıyır. Çünki müəllim yalnız bilik ötürən deyil, gələcəyin düşüncəsini və dəyərlərini formalaşdıran şəxsdir. Nizami Gəncəvinin adını daşıyan təhsil ocağında bu missiyanın həyata keçirilməsi onun elmə, biliyə və kamilliyə verdiyi dəyərin müasir təhsil mühitində yaşadılmasıdır.

Universitetin müasir tədris imkanları, tələbələr üçün yaradılan şərait, Nizami Gəncəvi Muzeyi və digər mədəni məkanlar təhsil ilə mədəniyyətin vəhdətini təmin edir. Ali təhsil ocağının gələcəkdə elmi və mədəni əməkdaşlığın mühüm mərkəzlərindən birinə çevrilməsi bu baxımdan əhəmiyyətlidir.

Azərbaycan və Özbəkistan arasında münasibətlərin bütün sahələrdə inkişafı türk dövlətləri arasında həmrəyliyin, qarşılıqlı etimadın və ortaq mədəni dəyərlərin möhkəmlənməsinə mühüm töhfə verir. Ortaq tarix, mədəniyyət, mənəvi dəyərlər və dövlətçilik ənənələri Türk dünyasının gələcəyə daha sıx birlik içində addımlaması üçün möhkəm əsas yaradır. Bu mənzərənin Qarabağda başlayan xüsusi bir səhifəsi də var. Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin yaradılması Azərbaycan-Özbəkistan qardaşlığının Qarabağda ucalan mühüm simvollarındandır. Özbəkistanın böyük alimi və dövlət xadimi Mirzə Uluqbəyin adının Azərbaycan torpağında bir məktəbdə yaşadılması iki xalqın bir-birinin tarixinə və mədəni irsinə göstərdiyi ehtiramın parlaq nümunəsidir. Məktəbin şagirdlərinin Daşkənddə təhsil almaq imkanları əldə etməsi, müəllimlərin Özbəkistanda müasir təhsil proqramları üzrə təlimlərdə iştirakı isə bu qardaşlığın yalnız simvolik deyil, real həyatdakı ifadəsidir.

Belə təşəbbüslər dövlətlərarası münasibətləri gənc nəslin həyatına daşıyır, qarşılıqlı tanımanı və etimadı möhkəmləndirir. Füzulidə Uluqbəyin adı məktəbdə, Daşkənddə Nizaminin adı universitetdə gələcəyə açılan qapıya çevrilir. Bu iki ünvan arasında Qarabağdan Daşkəndə, məktəbdən universitetə, keçmişdən gələcəyə uzanan mənəvi bir təhsil körpüsü yaranır.

Azərbaycan-Özbəkistan münasibətlərinin gücü yalnız yüksəksəviyyəli siyasi dialoqda yox, həm də bu əlaqələrin məktəblərə, universitetlərə, elmə və mədəniyyətə nüfuz etməsində özünü göstərir. Çünki dövlətlərarası münasibətlərin davamlılığı gələcək nəsillərin bir-birini tanıması, ortaq dəyərlərə sahib çıxması və qarşılıqlı ehtiramı yaşatması ilə daha da möhkəmlənir.

Prezident İlham Əliyevin bu tarixi mərasimdə iştirakı hadisənin siyasi və mənəvi əhəmiyyətini daha da artırır. Nizami Gəncəvinin adının Daşkənddə ali təhsil ocağında yaşadılması böyük Azərbaycan şairinə göstərilən ehtiramla yanaşı, milli-mədəni irsimizin beynəlxalq səviyyədə tanıdılmasının, Azərbaycan-Özbəkistan qardaşlığının və Türk dünyasının ortaq mədəni yaddaşının gələcəyə daşınmasının parlaq nümunəsidir.

Böyük şəxsiyyətlərin əsl böyüklüyü yalnız öz dövrlərində deyil, əsrlər sonra da gələcək nəsillərə söz deyə bilməsindədir. Nizaminin əsrlər əvvəl yaratdığı mənəvi xəzinə bu gün də yeni nəsillərin düşüncəsinə yol göstərir. Onun yaradıcılığında insanı kamilliyə, elmə, ədalətə və mənəvi ucalığa səsləyən ideyalar zamanın sərhədlərini aşaraq bu gün də öz əhəmiyyətini qoruyur.

Gəncədən Daşkəndə uzanan bu mənəvi yol Nizami irsinin yalnız ədəbi miras deyil, həm də Türk dünyasının ortaq dəyərlərini birləşdirən canlı mənəvi körpü olduğunu göstərir. Bu yolun təməlində ortaq tarix, istiqamətində elm və təhsil, gücündə isə qardaşlıq dayanır.

Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin Daşkənddə fəaliyyətə başlaması bu baxımdan yalnız yeni bir təhsil ocağının yaradılması deyil. Bu, iki xalqın ortaq mənəvi yaddaşının gələcək nəsillərə ötürülməsi, Azərbaycan-Özbəkistan qardaşlığının elm və təhsil müstəvisində daha da möhkəmlənməsi deməkdir.

Nizaminin söz işığı isə Türk dünyasının gələcəyinə uzanan bu yolda yeni nəsillərə yol göstərməkdə davam edir.

**Aidə İBRAHİMOVA**
*NDU Beynəlxalq Kembric Məktəbinin İctimaiyyətlə əlaqələr üzrə mütəxəssisi*

# Naxçıvanın yeni inkişaf mərhələsi

## Təhlükəsizlikdən dayanıqlı tərəqqiyə və beynəlxalq nəqliyyat qovşağına

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 avqust 2026-cı il tarixdə Naxçıvana səfəri qədim diyarın qarşıdakı inkişaf perspektivlərinə dair aydın və sistemli baxış ortaya qoydu. Cənab Prezidentin Naxçıvanda Azərbaycan Televiziyasına verdiyi müsahibədə səsləndirdiyi fikirlər göstərdi ki, Naxçıvanın gələcəyi yalnız ayrı-ayrı layihələrin icrası ilə deyil, təhlükəsizlik, enerji, sənaye, nəqliyyat, kənd təsərrüfatı, turizm, sosial infrastruktur və tarixi-mədəni irsin qorunmasını birləşdirən vahid inkişaf strategiyası əsasında formalaşdırılır. Cənab İlham Əliyevin Prezident kimi Naxçıvana 17-ci səfəri zamanı iştirak etdiyi tədbirlər muxtar respublikanın inkişafının müxtəlif istiqamətlərini əhatə edən genişmiqyaslı fəaliyyətin göstəricisidir.**



Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın inkişaf perspektivlərindən danışarkən, ilk növbədə, təhlükəsizlik amili önə çıxır. Coğrafi mövqeyi və Azərbaycanın əsas hissəsi ilə birbaşa quru bağlantısının olmaması Naxçıvanın müdafiə potensialının daim diqqətdə saxlanılmasını zəruri edir. Cənab Prezidentin uzaqgörən siyasətinin nəticəsində Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun yaradılması məhz bu spesifik xüsusiyyətlər nəzərə alınmaqla həyata keçirilib. Bu gün isə hərbi potensialın ən müasir texnika və yeni komando qüvvələri hesabına gücləndirilməsi davam etdirilir. Bu yanaşmanın mahiyyəti yalnız hərbi gücün artırılması deyil. Təhlükəsizliyin təmin olunması Naxçıvanın iqtisadi və sosial inkişafı üçün etibarlı zəmin yaradır.

Muxtar respublikanın enerji təminatı artıq yalnız daxili tələbatın ödənilməsi müstəvisində nəzərdən keçirilmir. Qarşıdakı mərhələdə əsas məqsədlərdən biri Naxçıvanı enerji ixrac edən mərkəzlərdən birinə çevirməkdir. Bununla yanaşı, qədim diyarın Günəş enerjisi potensialı xüsusi diqqət çəkir. Ümumilikdə, Naxçıvanda 688 hektar sahə Günəş elektrik stansiyalarının tikintisi məqsədilə bərpa olunan enerji mənbələri ərazisi kimi müəyyən edilib. Beləliklə, Naxçıvanın enerji siyasətində yeni mərhələ başlayır: enerji təhlükəsizliyindən enerji bolluğuna, enerji bolluğundan isə enerji ixracına keçid.

Naxçıvanın gələcəyini müəyyənləşdirən ən mühüm məsələlərdən biri kimi nəqliyyat amili xüsusilə geniş yer tutur. Zəngəzur dəhlizi ideyasının həyata keçirilməsi Naxçıvanın coğrafi mövqeyini yeni məzmunla zənginləşdirəcək. Azərbaycanı Naxçıvanla birləşdirəcək nəqliyyat bağlantısı təkcə iki ərazi arasında əlaqənin bərpası deyil, daha geniş coğrafiyanı birləşdirən yeni nəqliyyat xəritəsinin formalaşması deməkdir. Horadiz-Ağbənd avtomobil yolunun, demək olar ki, hazır vəziyyətə gətirilməsi, dəmir yolunun tikintisinin davam etdirilməsi və Naxçıvan ərazisində dəmir yolu infrastrukturunun yenidən qurulması bu istiqamətdə görülən işlərin miqyasını göstərir.

Xüsusilə diqqətçəkən məqam Naxçıvan dəmir yolunun gələcək yükaşırma qabiliyyətinin 15 milyon tona çatdırılması planıdır. Bu, Naxçıvanın yalnız tranzit ərazi deyil, mühüm logistika mərkəzinə çevrilməsi üçün ciddi imkan yaradır. Bu həm də Naxçıvanı Avrasiya nəqliyyat xəritəsində strateji mövqeyə çıxaracaq. 15 milyon ton və daha çox yükün Naxçıvandan keçməsi yeni logistika mərkəzlərinin, xidmət sahələrinin, istehsal müəssisələrinin və çoxsaylı iş yerlərinin yaranmasına təkan verəcək.

Cənab İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində diqqətçəkən fikirlərdən biri də Zəngəzur dəhlizinə daha geniş yanaşmanın ifadə olunmasıdır. Bu dəhliz gələcəkdə avtomobil və dəmir yolları ilə yanaşı, elektrik xətləri, fiber-optik kabellər, zərurət yaranarsa, enerji daşıyıcıları üçün digər infrastrukturun keçdiyi çoxfunksiyalı kommunikasiya xəttinə çevrilə bilər. Bu baxımdan, Zəngəzur dəhlizi təkcə Azərbaycanla Naxçıvan arasında bağlantı deyil. O, region ölkələrinin enerji və nəqliyyat sistemlərini bir-birinə bağlayan, iqtisadi əməkdaşlığı genişləndirən və yeni imkanlar yaradan regional platforma kimi çıxış edəcək. Cənab Prezidentin vurğuladığı kimi: ***"...nə qədər çox alternativlər olsa, hamı üçün o qədər də yaxşıdır".***

Cənab Prezidentin iştirakı ilə Naxçıvan Sənaye Parkının təməlinin qoyulması muxtar respublikanın iqtisadi gələcəyi baxımından xüsusi hadisədir. Sənaye Parkının yaradılması yeni istehsal sahələrinin, müasir müəssisələrin və iş yerlərinin formalaşmasına imkan verəcək. Bu eyni zamanda Naxçıvan iqtisadiyyatının daha çox istehsal və ixracyönümlü modelə keçidini sürətləndirəcək. Əgər enerji və nəqliyyat imkanlarının genişləndirilməsi sənaye üçün infrastruktur bazası yaradırsa, Sənaye Parkı həmin imkanların iqtisadi dəyərə çevrilməsinə şərait yaradacaq.

Naxçıvanın inkişafında kənd təsərrüfatı da xüsusi yer tutur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, kənd təsərrüfatının inkişafına dair yeni Dövlət Proqramında Naxçıvana xüsusi diqqət ayrılıb. Bu istiqamətdə görülən işlər yalnız kənd təsərrüfatı istehsalının artımına deyil, kənd yerlərində məşğulluğun genişlənməsinə, ərzaq təhlükəsizliyinin gücləndirilməsinə və yerli iqtisadi fəallığın yüksəlməsinə xidmət edəcək.

Naxçıvanın gələcəyi haqqında danışarkən onun keçmişinin qorunması da xüsusi əhəmiyyət daşıyır. Prezidentin müsahibəsində Möminə xatun türbəsinin bərpası, digər tarixi-mədəni abidələrin konservasiyası və qorunması ilə bağlı məsələlərin vurğulanması təsadüfi deyil. Naxçıvan qədim dövlətçilik və mədəniyyət mərkəzi olmaqla yanaşı, Azərbaycan memarlıq məktəbinin ən mühüm beşiklərindən biridir. Əcəmi Naxçıvani kimi dahi memarın irsi bu diyarın dünya mədəniyyətinə verdiyi töhfələrin parlaq nümunəsidir. Bu baxımdan, tarixi abidələrin bərpası yalnız keçmişin qorunması deyil, həm də gələcək turizm imkanlarının genişləndirilməsidir. Naxçıvanın zəngin tarixi, təbiəti, təmiz havası və mənzərəli məkanları onun turizm potensialını yüksək qiymətləndirməyə əsas verir. Yeni beşulduzlu mehmanxananın təməlinin qoyulması isə turizm infrastrukturunun yenilənməsi istiqamətində mühüm addımdır.

İnkişafın əsas göstəricilərindən biri də insanların gündəlik həyatına birbaşa təsir edən infrastruktur layihələridir. Naxçıvan şəhərində yeni elektrik avtobuslarının istifadəyə verilməsi şəhər nəqliyyatının müasirləşdirilməsi baxımından əhəmiyyətlidir. Şəhərlərarası və rayonlararası nəqliyyat üçün 217 müasir avtobusun alınması ilə bağlı cənab Prezidentin tapşırığı isə muxtar respublikanın şəhər və rayonları arasında nəqliyyat əlaqələrinin daha da yaxşılaşdırılmasına xidmət edəcək. Bununla yanaşı, 420 kilometr uzunluğunda müxtəlif kateqoriyalı yolların tikintisi və əsaslı təmiri nəzərdə tutulur.

Cənab Prezidentin Azərbaycan Televiziyasına müsahibəsində səsləndirilən mühüm mesajlardan biri Naxçıvanın Qarabağ və Şərqi Zəngəzurla vahid inkişaf konsepsiyası çərçivəsində nəzərdən keçirilməsidir. Naxçıvanın muxtar respublika statusu saxlanılmaqla idarəetmə qaydalarının təkmilləşdirilməsi ilə bağlı Qarabağ və Şərqi Zəngəzurdakı kimi Prezidentin xüsusi nümayəndəliyi modelinin Naxçıvanda da tətbiq edilməsi bu yanaşmanın tərkib hissəsidir. Burada məqsəd idarəetməni daha çevik, nəticəyönümlü və layihələrin icrasını daha sürətli etməkdir. Bu yanaşma həm də Naxçıvan, Qarabağ və Şərqi Zəngəzurun gələcək inkişafının vahid konsepsiya əsasında qurulmasına xidmət edir.

Azərbaycan Prezidentinin Naxçıvana səfəri çərçivəsində Naxçıvan şəhərində 518 mənzildən ibarət sosial evlər kompleksinin təməlinin qoyulması əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və sosial rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir. Kompleksin təməlinin dövlət başçısının Naxçıvana səfəri zamanı qoyulması sosial siyasətin muxtar respublikada da ardıcıl şəkildə davam etdirildiyini göstərir. Görülən tədbirlər bir tərəfdən vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılmasına, digər tərəfdən isə Naxçıvanın şəhərsalma və sosial infrastrukturunun kompleks şəkildə yenilənməsinə xidmət edir.

Prezident İlham Əliyevin Naxçıvana səfəri çərçivəsində Naxçıvan şəhərinin yeni Baş planının təqdim edilməsi şəhərin gələcək inkişafının sistemli və uzunmüddətli əsaslar üzərində qurulması baxımından mühüm əhəmiyyət daşıyır. Baş plan Naxçıvan şəhərinin müasir şəhərsalma prinsipləri əsasında inkişaf etdirilməsini, əhalinin rahat və təhlükəsiz yaşayışı üçün zəruri infrastrukturun formalaşdırılmasını, nəqliyyat sisteminin təkmilləşdirilməsini, yeni yaşayış və ictimai məkanların yaradılmasını, yaşıllıq ərazilərinin genişləndirilməsini və şəhərin tarixi-memarlıq simasının qorunmasını nəzərdə tutur. Baş plan, eyni zamanda Naxçıvan şəhərinin artan sosial-iqtisadi potensialının gələcək inkişaf perspektivləri ilə uzlaşdırılmasına, şəhərin daha funksional və rahat urbanistik məkana çevrilməsinə imkan verəcək.

Prezident İlham Əliyevin Naxçıvan səfəri zamanı verdiyi müsahibənin ümumi məzmunu bir mühüm nəticəyə gəlməyə imkan verir: Naxçıvanın inkişafı ilə bağlı hədəflər ayrı-ayrı istiqamətlər üzrə deyil, vahid və uzunmüddətli strategiya əsasında müəyyənləşdirilir. Bu strategiyanın bir tərəfində təhlükəsizlik və enerji dayanıqlılığı, digər tərəfində sənaye və nəqliyyat, kənd təsərrüfatı və turizm, sosial infrastruktur və müasir şəhərsalma, bütün bunların təməlində isə Naxçıvanın tarixi-mədəni irsi dayanır. Diqqətçəkən məqamlardan biri isə ondan ibarətdir ki, Naxçıvan artıq yalnız öz daxili inkişaf ehtiyacları çərçivəsində nəzərdən keçirilmir. Onun gələcək rolu regional və beynəlxalq layihələrlə əlaqələndirilir. Cənab Prezidentin dediyi kimi, planlar böyükdür. Bu planların həyata keçirilməsi isə Naxçıvanın inkişafında yeni mərhələnin başlanğıcı deyil, artıq başlanmış genişmiqyaslı transformasiyanın növbəti və daha sürətli mərhələsidir.

**Qəzənfər ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2026-cı ilin sentyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix, saat və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 10.09.2026, saat $10^{00}$, Sədərək rayonu, Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədli Abbas Paşa oğlu, 060-570-70-60 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 10.09.2026, saat $10^{00}$, Sədərək rayonu, Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 18.09.2026, saat $16^{00}$, Şərur rayonu, Kürkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 10.09.2026, saat $15^{00}$, Şərur rayonu, Çomaxtur kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 5. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 10.09.2026, saat $15^{00}$, Şərur rayonu, Ərəbyengicə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 6. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 09.09.2026, saat $10^{30}$, Şərur rayonu, Dərəkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 7. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 17.09.2026, saat $15^{00}$, Şərur rayonu, Cəlilkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 8. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 28.09.2026, saat $11^{00}$, Şərur rayonu, Muğancıq-Mehrab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| 9. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 09.09.2026, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası | İsmayılov Tural Səid oğlu, 060-206-60-60 |
| 10. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 18.09.2026, saat $15^{00}$, Şərur rayonu, Gümüşlü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Fərəcova Günel Nəsrəddin qızı, 051-757-33-14 |
| 11. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 17.09.2026, saat $15^{00}$, Şərur rayonu, Ələkli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 12. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 14.09.2026, saat $15^{00}$, Şərur rayonu, Püsyan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 13. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 18.09.2026, saat $10^{00}$, Kəngərli rayonu, Qabıllı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Cəlilov İbrahim Elman oğlu, 050-707-20-12 |
| 14. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 16.09.2026, saat $11^{00}$, Kəngərli rayonu, Qıvraq qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədova Şənay Bəhlul qızı, 055-503-08-25 |
| 15. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 08.09.2026, saat $12^{00}$, Kəngərli rayonu, Yeni Kərki kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 16. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 24.09.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Abutalıbov Mədət Arif oğlu, 050-740-20-40 |
| 17. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 11.09.2026, saat $15^{00}$, Babək rayonu, Çeşməbasar və Güznüt kəndləri, Güznüt kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 18. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 18.09.2026, saat $11^{00}$, Babək rayonu, Şəkərabad kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 19. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 11.09.2026, saat $11^{00}$, Babək rayonu, Qahab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 20. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 17.09.2026, saat $15^{00}$, Babək rayonu, Qaraqala kənd tam orta məktəbin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 21. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 11.09.2026, saat $14^{00}$, Babək rayonu, Payız kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 22. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 18.09.2026, saat $12^{00}$, Babək rayonu, Cəhri qəsəbə səhə xəstəxanasının inzibati binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyn qızı, 051-533-71-71 |
| 23. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 11.09.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, Tumbul kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 24. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 03.09.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı səhə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 25. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 07.09.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, Əliqulu Qəmküsar və Əlincə məhəllələri, səyyar qəbul | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 26. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 09.09.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 2 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 27. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 11.09.2026, saat $17^{00}$, Naxçıvan şəhəri, Vüqar Qasımov küçəsi, səyyar qəbul | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 28. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 11.09.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 6 saylı uşaq bağçasının binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 29. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 09.09.2026, saat $12^{00}$, Naxçıvan şəhəri, 3 saylı uşaq bağçasının binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 30. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 09.09.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 14 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 31. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 18.09.2026, saat $16^{00}$, Naxçıvan şəhəri, Xətai məhəlləsi, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 32. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 11.09.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, Əliabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 33. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 07.09.2026, saat $11^{00}$, Şahbuz rayonu, Keçili kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 34. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 10.09.2026, saat $11^{00}$, Şahbuz rayonu, Ağbulaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 35. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 09.09.2026, saat $15^{00}$, Şahbuz rayonu, Badamlı qəsəbəsi, saat $16^{00}$, Türkeş kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 060-543-24-29 |
| 36. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 09.09.2026, saat $10^{00}$, Culfa şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 055-592-42-18, 077-569-43-65 |
| 37. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 18.09.2026, saat $11^{00}$, Culfa rayonu, Şurud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası, saat $12^{00}$, Gal kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu, 050-263-86-85 |
| 38. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 01.09.2026, saat $11^{00}$, Culfa rayonu, Kırna kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 39. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 04.09.2026, saat $10^{00}$, Culfa rayonu, Milax kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Gözəlov Zəkəriyyə Tahir oğlu, 060-289-61-62, 050-289-61-62 |
| 40. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 24.09.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 41. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 17.09.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 18.09.2026, saat $16^{00}$, Ordubad rayonu, Dırnıs kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 43. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 10.09.2026, saat $11^{00}$, Ordubad rayonu, Üstüpü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 44. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 04.09.2026, saat $12^{00}$, Ordubad rayonu, Nəsirvaz kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əlizadə Polad Pərviz oğlu, 060-441-26-29 |

# Zəngəzur dəhlizinin dəmir yolu xətti –

## Naxçıvanın tranzit imkanlarını artıran strateji layihə





Zəngəzur dəhlizi üzrə dəmir yolu layihələrinin icrası Azərbaycanın nəqliyyat xəritəsində yeni mərhələnin əsasını formalaşdıracaq. Burada söhbət yalnız yeni dəmir yolu xətlərinin çəkilməsindən getmir. Layihələr Azərbaycanın qərb rayonlarını Naxçıvanla, Naxçıvanı isə Türkiyə ilə birləşdirəcək vahid və fasiləsiz nəqliyyat sisteminin yaradılmasına hesablanıb. Bu baxımdan, dəhlizin dəmir yolu komponenti həm ölkənin tranzit imkanlarının genişləndirilməsi, həm də Naxçıvanın regional logistika mərkəzinə çevrilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Layihələrin tam reallaşması ilə Azərbaycan ərazisindən keçən dəmir yolu xəttinin illik buraxılış qabiliyyətinin 15 milyon tona çatdırılması nəzərdə tutulur. Bu göstərici gələcəkdə həm daxili, həm də beynəlxalq yükdaşımaların əhəmiyyətli dərəcədə artırılması üçün geniş imkanlar yaradacaq. Beləliklə, dəmir yolu infrastrukturu Azərbaycanın Şərq-Qərb nəqliyyat marşrutlarındakı rolunu daha da gücləndirən əsas amillərdən birinə çevriləcək.





Artıq bu istiqamətdə real nəticələr də formalaşıb. Horadiz-Yuxarı Mərcanlı-Soltanlı stansiyalarını əhatə edən 30 kilometrlik hissənin müvəqqəti istismara verilməsi və 2024-cü ilin mayından "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına yükdaşımaların həyata keçirilməsi layihənin mərhələli şəkildə praktik nəticəyə çevrildiyini göstərir. İndiyədək bu istiqamətdə 43 min ton yükün daşınması dəmir yolu xəttinin yalnız gələcək perspektiv deyil, artıq formalaşan iqtisadi əhəmiyyətini də nümayiş etdirir.

Zəngəzur dəhlizinin Naxçıvan istiqamətində isə daha genişmiqyaslı infrastruktur yenilənməsi nəzərdə tutulur. 2025-ci ildən Naxçıvan dəmir yolu xəttinin layihələndirilməsi və tikinti işlərinə başlanılması bu prosesdə yeni mərhələ yaradıb. Mövcud 188 kilometrlik xəttin yeni layihə üzrə 194,2 kilometrə çatdırılması, 10 stansiyanın və 3 sərnişin dayanacağı platformasının yenidən qurulması Naxçıvanın dəmir yolu infrastrukturunun texniki və funksional imkanlarının əhəmiyyətli dərəcədə artırılmasına hesablanıb.





Layihənin diqqətçəkən istiqamətlərindən biri Salammməlik stansiyasından Ermənistanla dövlət sərhədinədək olan 7 kilometrlik hissədə işlərin artıq tikinti mərhələsinə keçməsidir. Layihələndirmənin tamamlanması, mühəndislik və infrastruktur işlərinin bir hissəsinin yekunlaşdırılması, əraziyə 7 kilometrlik rels və 7 min şpalın gətirilməsi praktik icra mərhələsinin sürətləndiyini göstərir.

Sentyabrın sonunadək yolun üst quruluşunun 6,3 kilometrlik hissəsinin quraşdırılmasının planlaşdırılması isə işlərin konkret zaman qrafiki üzrə davam etdirildiyini göstərən mühüm faktdır.

Bununla yanaşı, Ermənistanla sərhəd istiqamətində qalan hissənin inşası minatəmizləmə və layihələrin uzlaşdırılması prosesləri ilə birbaşa əlaqəlidir. Bu mərhələdə TRIPP marşrutu üzrə layihənin hazırlanması və müxtəlif tərəflərin həyata keçirdiyi infrastruktur layihələrinin texniki baxımdan əlaqələndirilməsi dəhlizin, bütövlükdə, səmərəli fəaliyyət göstərməsi üçün xüsusi əhəmiyyət daşıyır. Naxçıvanın Türkiyə ilə dəmir yolu bağlantısının perspektivi isə layihənin regional əhəmiyyətini daha da artırır. Sədərək stansiyasından Türkiyə sərhədinədək olan hissənin Qars-İğdır-Dilucu dəmir yolu ilə texniki və layihə baxımından uyğunlaşdırılması nəzərdə tutulur. Türkiyə tərəfindən bu istiqamətdə layihələndirmə işlərinin aparılması gələcəkdə Naxçıvanın Türkiyənin dəmir yolu şəbəkəsinə inteqrasiyası üçün mühüm zəmin formalaşdırır.

Ümumilikdə, Zəngəzur dəhlizi üzrə dəmir yolu layihələri Azərbaycanın regional nəqliyyat və logistika imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın qərb rayonlarından Naxçıvana, oradan isə Türkiyəyə uzanan fasiləsiz dəmir yolu bağlantısının yaradılması yükdaşımaların sürətinin və həcminin artmasına, Naxçıvanın tranzit imkanlarının genişlənməsinə şərait yaradacaq.

Bu baxımdan, dəhlizin Naxçıvan istiqamətində reallaşdırılması muxtar respublikanın əlverişli coğrafi mövqeyinin iqtisadi və nəqliyyat üstünlüklərinə çevrilməsi üçün yeni imkanlar formalaşdıracaq. Dəmir yolu infrastrukturunun inkişafı, sərhədyanı bağlantıların qurulması və Türkiyənin dəmir yolu şəbəkəsinə inteqrasiyanın təmin edilməsi Naxçıvanın regional nəqliyyat sistemində rolunu daha da gücləndirəcək.

Eyni zamanda layihələrin həyata keçirilməsi Azərbaycanın Şərq-Qərb və daha geniş Avrasiya nəqliyyat marşrutlarında mövqeyini möhkəmləndirərək ölkənin mühüm tranzit və logistika qovşaqlarından birinə çevrilməsi istiqamətində əlavə imkanlar yaradacaq. Bu isə Zəngəzur dəhlizinin yalnız Azərbaycan daxilində nəqliyyat əlaqələrinin genişləndirilməsi ilə məhdudlaşmadığını, daha geniş regional və beynəlxalq marşrutların əlaqələndirilməsində mühüm rol oynadığını göstərir.

Prezident İlham Əliyevin avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində qeyd etdiyi kimi: ***"Bu yolun əhəmiyyəti dediyim kimi, təkcə Azərbaycan üçün yox, geniş coğrafiya üçün olacaq. Çünki qeyd etdiyim kimi, bu, Şərq-Qərb Nəqliyyat Dəhlizinin bir qolu olacaq. Eyni zamanda Şimal-Cənub Nəqliyyat Dəhlizinin bir qolu olacaq".***

Beləliklə, Zəngəzur dəhlizinin dəmir yolu xətti Naxçıvan üçün, sadəcə, yeni nəqliyyat bağlantısı deyil, muxtar respublikanın tranzit və logistika imkanlarını köklü şəkildə dəyişə biləcək strateji infrastruktur layihəsidir. Bu layihənin reallaşması Naxçıvanın coğrafi mövqeyini iqtisadi üstünlüyə çevirərək onu Azərbaycanı Türkiyə və daha geniş Avrasiya məkanı ilə əlaqələndirən mühüm nəqliyyat qovşaqlarından birinə çevirmək potensialına malikdir.

**Nail ƏSGƏROV**



# Tarixi-memarlıq irsimizin yaşadılması baxımından əlamətdar hadisə



Avqustun 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Naxçıvana səfəri çərçivəsində Möminə xatun türbəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olmaları qədim diyarın zəngin tarixi-memarlıq irsinə göstərilən yüksək diqqətin daha bir parlaq ifadəsidir. Əsrlərin yadigarı olan bu möhtəşəm abidənin qorunaraq gələcək nəsillərə ötürülməsi istiqamətində görülən işlərlə yanaşı, səfər çərçivəsində böyük Azərbaycan memarı Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində ucaldılmış abidəsinin açılışının keçirilməsi də tarixi-memarlıq irsimizin yaşadılması baxımından əlamətdar hadisə kimi yadda qaldı.

Tarixin daş yaddaşında özünəməxsus iz qoyan Möminə xatun türbəsində aparılan bərpa işlərinin mahiyyəti və qarşıya qoyulan məqsədlərlə bağlı Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət və mədəni irs şöbəsinin müdiri Pərvin Həsənov "Şərq qapısı"na müsahibəsində ətraflı məlumat verib.

Pərvin Həsənov bildirib ki, Möminə xatun türbəsinin bərpası muxtar respublikanın tarixi-memarlıq abidələrinin qorunması ilə bağlı həyata keçirilən tədbirlər sırasında xüsusi yer tutur. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramında da abidənin bərpası nəzərdə tutulub.

O qeyd etdi ki, türbənin memarlıq xüsusiyyətləri və tarixi əhəmiyyəti nəzərə alınaraq Avstriyanın "Ateiler Erich Pummer GmbH" şirkəti ilə 2024-cü ildə müqavilə bağlanılıb. Aparılan işlər çərçivəsində abidənin mövcud vəziyyəti hərtərəfli tədqiq edilib, qiymətləndirmə və ölçmə işləri həyata keçirilib. 2025-ci ildə bərpa-konservasiya işlərinin aparılması üçün 1 milyon manat vəsait ayrılıb. Həmin il işlərin davam etdirilməsi məqsədilə şirkətlə, təxminən, 1,95 milyon avro dəyərində müqavilə bağlanılıb.

Pərvin Həsənovun sözlərinə görə, 2026-cı ildə də bərpa işlərinin davam etdirilməsi üçün 9 milyon 566 min manat vəsait ayrılıb və şirkətlə, təxminən, 3,9 milyon avro dəyərində yeni müqavilə imzalanıb. Hazırda türbənin bərpası ilə yanaşı, damının yenidən qurulması, məqbərədəki mövcud əyilmənin ölçülməsi və nəzarətdə saxlanılması, həmçinin drenaj sisteminin qurulması istiqamətində işlər görülür.

Möminə xatun türbəsinin qorunması və bərpası ilə bağlı görülən işlər abidənin yalnız tarixi deyil, memarlıq baxımından da əhəmiyyətini bir daha önə çıxarır.

Əcəmi Naxçıvaninin əsərlərinin özünəməxsus xüsusiyyətləri, yaratdığı memarlıq məktəbi və bu irsin müasir şəhər mühitində yaşadılması barədə Naxçıvan Dövlət Universitetinin Memarlıq kafedrasının dosenti, memarlıq üzrə fəlsəfə doktoru Gülnarə Qənbərova fikirlərini "Şərq qapısı" qəzeti ilə bölüşüb.

Onun sözlərinə görə, Naxçıvan qədimliyi və zəngin tarixi-memarlıq abidələri ilə seçilən şəhərlərimizdəndir. Bu irsin ən qiymətli nümunələri sırasında Əcəmi Naxçıvaninin əsərləri xüsusi yer tutur. Aradan 900 ildən çox vaxt keçməsinə baxmayaraq, böyük memarın yaradıcılığı həm Azərbaycan, həm də İslam və Şərq memarlığı tarixində öz əhəmiyyətini qoruyub saxlayır.

Gülnarə Qənbərova qeyd edib ki, Əcəmi Naxçıvaninin şah əsərlərindən biri olan Möminə xatun türbəsi memarlıq quruluşu, konstruktiv və riyazi həlləri, eləcə də zəngin ornamentləri ilə seçilir. Abidədə Əcəminin dövrünü qabaqlayan memarlıq düşüncəsini əks etdirən mühüm elementlərə rast gəlinir. Xüsusilə sərdabə hissəsində nervürlü tağların tətbiqi və səthlərdə mürəkkəb həndəsi kompozisiyaların işlənməsi onun yüksək sənətkarlıq və mühəndislik qabiliyyətini nümayiş etdirir.

O vurğulayıb ki, Əcəmi Naxçıvani İslam memarlığının klassik üslub xüsusiyyətlərini yerli memarlıq və bədii ənənələrlə məharətlə birləşdirərək özünəməxsus memarlıq dili yaradıb. Onun Naxçıvan ərazisindəki digər əsərlərində, o cümlədən Cümə məscidinin günbəz hissəsində və qoşa minarəli baştağlarında da bu yenilikçi yanaşmanın izlərini görmək mümkündür. Əcəmi Naxçıvaninin irsi yalnız keçmişin yadigarı deyil, bu gün də şəhərin memarlıq simasının formalaşmasında mühüm mənəvi və estetik mənbədir. Naxçıvanın müasir şəhərsalma prosesində tarixi irsin qorunması ilə yenilənən şəhər mühitinin uzlaşdırılması bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

"Əcəmi Naxçıvaninin irsinin şəhərin müasir siması ilə vəhdətdə təqdim olunması onun yaradıcılığının yeni nəsillərə çatdırılması baxımından da əhəmiyyətlidir. Böyük memarın abidəsinin şəhər mərkəzində ucaldılması bu irsin yaddaşlarda yaşadılması ilə yanaşı, gənclərdə memarlıq və mühəndislik sahələrinə marağın formalaşmasına, Naxçıvanın tarixi-mədəni və turizm potensialının daha geniş tanıdılmasına da töhfə verə bilər", – deyə Gülnarə Qənbərova əlavə edib.

Əcəmi Naxçıvaninin memarlıq irsinin bu gün də şəhərin simasında yaşadılması onun yeni abidəsinin ideyasında da öz əksini tapıb. Abidənin şəhər mühitinə uyğunlaşdırılması, kompozisiya həlli və yaradılmasında qarşıya qoyulan məqsədlərlə bağlı layihə müəlliflərindən biri olan, Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin sədri Heydər Əhmədov danışıb.



Heydər Əhmədovun sözlərinə görə, abidənin yaradılmasında əsas məqsəd Əcəmi Naxçıvaninin zəngin irsini yalnız tarixi keçmişin yadigarı kimi deyil, müasir şəhər mühitinin bir parçası kimi təqdim etmək olub. Abidənin Əcəmi seyrangahında yerləşdirilməsi də təsadüfi deyil. Böyük memarın adını daşıyan məkanda onun özünün heykəlinin ucaldılması Əcəmi ilə Naxçıvanın memarlıq yaddaşı arasında mənəvi bir bağ yaradır.

O qeyd edib ki, abidənin kompozisiyasında Əcəmi Naxçıvaninin şəxsiyyəti və memarlıq irsi əsas götürülüb. Bürüncdən hazırlanan heykəl bütöv Tokovski qranitdən hazırlanmış postament üzərində ucaldılıb və ümumi hündürlüyü 3 metr 85 santimetrdir. Layihənin hazırlanması və heykəlin ucaldılması qısa müddətdə həyata keçirilib. Onun fikrincə, bu abidə Əcəmi Naxçıvaninin adının şəhərin memarlıq yaddaşında daha da möhkəmlənməsinə və gələcək nəsillərin böyük sənətkarın irsi ilə daha yaxından tanış olmasına xidmət edəcək.

Görülən işlər Naxçıvanın zəngin memarlıq irsinin qorunması və müasir şəhər mühitində yaşadılması baxımından mühüm əhəmiyyət daşıyır. Möminə xatun türbəsinin bərpası və Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması böyük memarın irsinin gələcək nəsillərə çatdırılması ilə yanaşı, Naxçıvan memarlıq məktəbinin zəngin ənənələrinin daha geniş şəkildə tanıdılmasına da imkan yaradır.

# Bu gün təməli qoyulan binalar sabah insanların həyatına çevriləcək

Prezident İlham Əliyevin Naxçıvana 17-ci səfəri çərçivəsində Naxçıvan şəhərinin sabahına doğru atılan mühüm addımlardan birinin əsası qoyuldu. Təməli atılan 518 mənzildən ibarət yeni sosial yaşayış kompleksi təkcə yeni binaların ucaldılacağı bir ərazi deyil, yüzlərlə ailənin həyatına çevriləcək yaşayış məkanı olacaq. Təxminən, 5 hektarlıq ərazidə 6 və 7 mərtəbəli 16 yaşayış binasının inşası ilə yanaşı, insanların gündəlik ehtiyaclarını qarşılayacaq sosial və məişət infrastrukturu da yaradılacaq.



Bu layihənin əhəmiyyətini yalnız tikiləcək binaların sayı ilə ölçmək olmaz. Çünki bu gün təməli qoyulan hər bina sabah bir ailənin evi, bir uşağın böyüyəcəyi, insanların öz xatirələrini yaradacağı məkana çevriləcək. Bu baxımdan, kompleks Naxçıvan şəhərinin gələcək simasına əlavə olunan yeni bir səhifədir.

Mənzillərin bölgüsünə nəzər saldıqda da müxtəlif ailələrin ehtiyaclarının nəzərə alındığı görünür. Burada 93 birotaqlı, 37 ikiotaqlı, 351 üçotaqlı və 37 dördotaqlı mənzil olacaq. Üçotaqlı mənzillərin çoxluq təşkil etməsi daha geniş ailə tərkibinə malik sakinlər üçün uyğun yaşayış imkanlarının yaradılmasına, birotaqlı və ikiotaqlı mənzillər isə daha kiçik ailələr, o cümlədən gənc ailələr üçün seçim imkanlarının genişlənməsinə xidmət edəcək.

Layihənin ən maraqlı tərəflərindən biri "sosial mənzil" anlayışının yalnız mənzilin özündə tamamlanmamasıdır. Çünki insanın rahatlığı təkcə evinin qapısından içəri keçəndə başlamır. Yaşadığı ərazidə uşağını aparacağı bağçanın, gündəlik ehtiyaclarını qarşılayacağı iaşə və xidmət obyektlərinin olması da vacibdir. Kompleksdə məhz bu imkanların yaradılması nəzərdə tutulur.

Ərazinin mühəndis-kommunikasiya təminatı da layihənin əsas hissələrindəndir. Elektrik enerjisi, təbii qaz, içməli su və kanalizasiya xətləri çəkiləcək. Beləliklə, yeni mənzillərlə yanaşı, onların normal fəaliyyəti üçün zəruri kommunal sistemlər də əvvəlcədən formalaşdırılacaq.

Kompleksdə daxili yolların və səkilərin salınması, ərazinin yaşıllaşdırılması, sakinlərin istirahəti üçün məkanların yaradılması da nəzərdə tutulur. Bütün bunlar yaşayış binalarını bir-birindən ayrı tikililər kimi deyil, insanların rahat hərəkətini, istirahət etməsini və vaxt keçirməsini vahid bir məkanın tərkib hissəsinə çevirəcək.

Əslində, bu layihə Naxçıvanda son dövrlərdə gedən böyük dəyişikliklərin fonunda qiymətləndirilməlidir. Nəqliyyat-logistika, "yaşıl enerji" və digər sahələrdə həyata keçirilən layihələr şəhərin yalnız bu gününü deyil, sabahını da formalaşdırır. Yeni yaşayış massivlərinin yaradılması isə həmin dəyişikliklərin insanların gündəlik həyatına birbaşa toxunan tərəfidir. Bu baxımdan, yeni kompleks Naxçıvan şəhərinin ümumi inkişafından ayrı düşünülmür. Burada mənzil, sosial obyektlər və kommunal imkanların bir yaşayış mühiti kimi nəzərdə tutulması şəhərin gələcək inkişafına uyğun yaşayış məkanının formalaşmasına xidmət edəcək.

Kompleks istifadəyə verildikdə yüzlərlə ailə üçün, sadəcə, yeni mənzillərin qapıları açılmayacaq. Həmin qapıların arxasında yeni həyatların başlanğıcı, yeni ailə xatirələri, uşaqların böyüdüyü evlər olacaq. İllər sonra bu binalara baxanda Naxçıvanın dəyişən simasında bu gün qoyulan təməlin izlərini görəcəyik. Layihənin əsl dəyəri də məhz bundadır: bu gün təməli qoyulan evlər sabah insanların həyatına çevriləcək.

**Zəhra VƏLİYEVA**

# Dövlət qayğısı hər bir şəhid ailəsini və müharibə ilə əlaqədar əlilliyi olan şəxsləri əhatə edir

**Ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərin ailələrinə, əlillərə və müharibə veteranlarına yüksək diqqət və qayğı göstərilməsi hər zaman dövlət siyasətinin prioritet məsələsidir. Birbaşa Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və nəzarətində olan bu məsələ ilə bağlı ən ali səviyyədə müvafiq göstərişlər verilir və bu kateqoriyadan olan insanların problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasət müvafiq kateqoriyadan olan vətəndaşların sosial rifahının yüksəldilməsinə və layiqli həyat şəraitinin təmin olunmasına xidmət edir.**

**Şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatına da Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılıb. Prezident İlham Əliyevin bu kateqoriyadan olan vətəndaşlara göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində sosial müdafiə tədbirləri, o cümlədən mənzil təminatı proqramı ardıcıl şəkildə genişləndirilib. Zəfərlə başa çatan Vətən müharibəsindən sonrakı dövrdə proqramın miqyası beş dəfə artırılıb.**

**Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır. Avqustun 19-da daha 68 şəhid ailəsi və müharibə ilə əlaqədar əlilliyi olan şəxs yeni mənzillə təmin olunub. Bu mənzillərin 29-u Naxçıvan şəhərində, 23-ü Şərur rayonunda, digər mənzillər isə Babək, Culfa, Ordubad, Şahbuz və Kəngərli rayonlarında yerləşən yeni çoxmənzilli yaşayış binalarındadır. Mənzil sahibi olan ailələrin sevincini bölüşmək, bu diqqətin onlar üçün nə ifadə etdiyini öyrənmək məqsədilə həmin ailələrlə görüşüb təəssüratlarını dinlədik.**

## "Bu gün Şuşada, Murovdağın zirvəsində dalğalanan bayraq hər bir şəhid ailəsinin qürurudur"

Vətən müharibəsi şəhidi Həsən Quliyevin ailəsi də yeni mənzil sahibi olan ailələrdəndir. Şəhid atası, Şərur rayon Qarahəsənli kənd sakini İbrahim Quliyev deyir ki, oğlu Murovdağ istiqamətində gedən döyüşlərdə şəhid olub. Azərbaycan Ordusunun leytenantı olan qəhrəman "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Şəhid atası bildirdi ki, Vətən müharibəsinin qələbə ilə başa çatması şəhidlərimizin qəlbimizə vurduğu yaranı sağaltdı. Bu gün Şuşada, Murovdağın zirvəsində dalğalanan qələbə bayrağı hər bir şəhid ailəsinin qürurudur. Bu gün həm də ona görə fəxr edirik ki, dövlətimiz şəhid ailələrini heç bir zaman unutmur, onlara böyük diqqət və qayğı ilə yanaşır.

Şəhidin anası İradə ana isə oğlunun adını daşıyan nəvəsini böyütdüyünü bildirir: "Şərur şəhərində bizə təqdim olunan mənzilə köçmək, orada Həsənin adını daşıyan nəvəmi böyütmək mənim üçün böyük sevincdir. Füzulidə, Laçında çırağı yanan evləri görəndə qürur duyuram. Həsən də bu torpağın azadlığı uğrunda döyüşüb. Bu gün ocağımızda Həsən adlı bir oğul da böyüyür. Onu adına, Vətəninə və xalqına layiq şəkildə yetişdirəcəyik. Biz bir ölüb, min dirilirik".

## "Oğul həsrətinə Vətən müharibəsindəki Zəfər təsəlli olub"

Qədim igidlər yurdu Kəngərlinin Şahtaxtı kənd sakini, şəhid anası Səkinə Qədimovanın illərdir, oğul həsrəti ilə döyünən ürəyinə Vətən müharibəsində qazanılan Zəfər təsəlli olub. Oğlu Famil yurdumuzun ən çətin günlərində – 1990-cı illərin qanlı-qadalı vaxtlarında hərbi xidmətini kəşfiyyatçı əsgər kimi edib. Naxçıvan Muxtar Respublikasının düşmənlə sərhədinin müxtəlif istiqamətlərində mərdliklə vuruşub. Yaralansa da, geri çəkilməyib. Sədərək kəndi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Övladını itirdiyi gündən ötən 30 il ərzində Səkinə Qədimova və ailəsi dövlətin diqqət və qayğısı ilə əhatə olunub. İllər sonra yeni mənzillə təmin olunan şəhid anası sevincini belə ifadə edib: "Ömrümün ahıl çağında yeni mənzillə təmin edildim. Bunun üçün dövlət başçımıza minnətdaram. Allah dövlətimizi var eləsin. Şəhidlərimizin ruhu şad olsun".

## "Övladlarımızın xatirəsini uca tutan dövlətin varlığını hiss etmək böyük təsəllidir"

Dövlət tərəfindən mənzillə təmin olunan ailələrdən biri də Vətən müharibəsi şəhidi Mətin Hüseynovun ailəsidir. Ordubad rayonunun Düylün kəndindən olan leytenant Mətin Hüseynov Füzuli, Xocavənd, Qırmızı Bazar və Şuşa istiqamətlərində rəşadətlə vuruşub. Daşaltı əməliyyatı zamanı – noyabrın 9-da şəhidlik zirvəsinə ucalıb. Göstərdiyi şücaətə görə Mətin Hüseynov "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

Şəhid atası Ramiz Hüseynov göstərilən diqqətdən razılığını belə ifadə edir: "Dövlətimiz hər zaman şəhid ailələrinin yanındadır və bizi diqqətdən kənarda qoymur. Ailəmizin yeni mənzillə təmin olunmasına, göstərilən bu böyük diqqət və qayğıya görə cənab Prezidentə və dövlətimizə dərin minnətdarlığımı bildirirəm. Övladlarımızın xatirəsini hər zaman uca tutan dövlətin varlığını hiss etmək biz şəhid valideynləri üçün böyük təsəlli və qürur mənbəyidir".

## "Mənzil yeni həyatın başlanğıcıdır"

Sədərək rayonunun Dəmirçi kənd sakini Turqay Məhərrəmov Vətən müharibəsində iştirak edib, döyüşlərdə sağlamlığını itirib. 13 il Azərbaycan Ordusunda xüsusi təyinatlı zabit kimi xidmət edən Turqay Məhərrəmov "Şücaətə görə", "İgidliyə görə", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid və qazi ailələrinə göstərilən diqqətin ardıcıl xarakter daşıdığını vurğulayan Turqay Məhərrəmov yeni mənzilin ailəsi üçün yaratdığı imkanlardan danışır: "Şərur şəhərinin mərkəzi küçəsində yerləşən yeni mənzilə köçmək ailəmiz üçün böyük sevincdir. Dörd övladım həmin mənzildə böyüyəcək. Onların Vətənə layiqli şəxsiyyət kimi yetişməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Müzəffər Ordunun zabiti olmaq qüruru ilə yaşayır, ömrüm boyu Ali Baş Komandanımıza minnətdar olacağam".

## "Bu diqqət bizim üçün böyük mənəvi dayaqdır"

Ordubad rayonunun Məzrə kənd sakini Hüseyn Məmmədov da Vətən uğrunda sağlamlığını itirənlərdəndir. 2019-cu ildən Azərbaycan Ordusunda zabit kimi xidmət edən Hüseyn Məmmədov Suqovuşan, Murovdağ və Talış kəndi uğrunda gedən döyüşlərdə iştirak edib. Ötən günlərdə o, Naxçıvan şəhərində mənzillə təmin olunub. Dövlət tərəfindən göstərilən diqqəti yüksək qiymətləndirir: "Prezidentimiz öz fəaliyyəti ilə həmişə sübut edib ki, O hər bir azərbaycanlının Prezidentidir. Dövlət başçımız bütün vətəndaşlara qayğı göstərir, onların problemlərinin həlli istiqamətində ardıcıl işlər görür. Bu gün fiziki sağlamlığını itirmiş insanların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən işlər də bunun göstəricisidir".

## "Yeni mənzil bizim üçün böyük sevincdir"

Vətən müharibəsində göstərdiyi rəşadət və fədakarlıqla seçilən leytenant Azər Rüstəmli də mənzillə təmin olunanlar sırasındadır. Azərbaycan Silahlı Qüvvələrində zabit kimi xidmət edən Azər Rüstəmli Vətən müharibəsində ağır yaralanıb. Vətən qarşısındakı xidmətlərimə görə cənab Prezidentimiz tərəfindən "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub. Qəhrəmanımız dövlət tərəfindən göstərilən diqqət və qayğıdan söz açaraq bildirir: "Döyüşdən sonra dövlətimiz tərəfindən avtomobil və ötən günlərdə Ordubad şəhərində yeni mənzillə təmin olunmuşam. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların, şəhid ailələrinin və müharibə veteranlarının təminatına dəstək məqsədilə yaradılmış "Dəstək" Fondu və "YAŞAT" Fondu tərəfindən mənə maddi dəstək də göstərilib. Bunun üçün dövlətimizə minnətdarlığımı bildirirəm".

## "Zəfərin qəhrəmanlarına dövlət qayğısı"

Mənzillə təmin olunanlar arasında Babək rayonunun Didivar kəndindən olan Elxan Əliyev və Şahbuz rayonunun Keçili kəndindən Firuz Məmmədov da var. Onların hər ikisi Vətən müharibəsində müxtəlif istiqamətlərdə gedən döyüşlərdə iştirak edib və göstərdikləri xidmətə görə dövlət təltiflərinə layiq görülüblər.

Müharibənin ilk günlərindən Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edən Elxan Əliyev daha sonra Xocavənd istiqamətində gedən döyüşlərdə vuruşub və ağır xəsarət alıb. Döyüş meydanında göstərdiyi şücaət dövlət tərəfindən yüksək qiymətləndirilib. Elxan Əliyev "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Firuz Məmmədov isə Vətən müharibəsi zamanı Murovdağ, Suqovuşan və Talış kəndi istiqamətlərində gedən döyüşlərdə iştirak edib. O, Murovdağ yüksəkliyi uğrunda gedən döyüşdə sağlamlığını itirib. "Suqovuşanın azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif olunub.

Şahbuz şəhərində yeni mənzillə təmin olunan hər iki müsahibim göstərilən diqqət və qayğının ailələri üçün böyük əhəmiyyət daşıdığını bildirir.









## "Dövlət qayğısının müxtəlif istiqamətlərdə özünü göstərməsi qürurvericidir"

İkinci Qarabağ müharibəsi iştirakçısı, ehtiyatda olan leytenant Mürsəl Behbudov da mənzillə təmin olunanlar sırasındadır. Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edən Mürsəl Behbudov göstərdiyi rəşadətə görə "Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

O, dövlət qayğısının müxtəlif istiqamətlərdə özünü göstərdiyini bildirir: "2022-ci ildə avtomobillə təmin olunmağımı da böyük diqqət nümunəsi kimi qiymətləndirirəm. Qazilərin sosial rifahının yaxşılaşdırılması istiqamətində görülən işlər dövlət tərəfindən daim diqqətdə olduğumuzu göstərir. Culfa şəhərində yeni mənzillə təmin olunmağımız da bizim üçün böyük mənəvi əhəmiyyət daşıyır".

## "Göstərilən qayğı böyük mənəvi dayaqdır"

Babək rayonunun Vayxır kəndindən olan İkinci Qarabağ müharibəsi qazisi, ehtiyatda olan leytenant Fərdi Məmmədov da yeni mənzillə təmin edilib. O, Vətən müharibəsi zamanı Ağdam, Ağdərə və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Daha əvvəl avtomobillə təmin edilən Fərdi Məmmədov yeni mənzili yalnız yaşayış yeri deyil, həm də yeni başlanğıc kimi qiymətləndirir: "Dövlətimizin göstərdiyi diqqət və qayğı insanı qürurlandırır. Mənzillə təmin olunmağım çox gözəl hissdir. Mənim üçün bu, yeni bir həyatın başlanğıcıdır. Dövlətin bu istiqamətdə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirirəm. Göstərilən qayğı Vətən müdafiəçiləri üçün böyük mənəvi dayaqdır".

**"Şərq qapısı"**

# Sənət dünyamızın dörd bucağından görünən abidə adam – Tofiq Bakıxanov



Xalq şairi Osman Sarıvəlli bir şeirində hər kim yüz il yaşamasa, günahın onun özündə olduğunu deyir. Şair bu misraları ilə əsrə bərabər ömür yaşamağı insan üçün ən ali mükafat hesab edir, uzun və bərəkətli bir həyatı yaradılışın dəyəri adlandırırdı. Sözsüz ki, yüz yaşa çatmaq hər insan üçün gözəl nemətdir. Ancaq bu ömrü sevdiyin peşəyə həsr etmək, tutduğun yolda əmin addımlarla irəliləmək, sevdiklərinin, doğmalarının və ən əsası, xalqın yaddaşında əbədiləşən xatirəyə çevrilmək əldə etdiyin mükafatların fövqündə dayanır. Belə şəxsiyyətlərdən biri də Azərbaycanın çoxəsrlik sənət dünyasında əsrə yaxın ömür yaşayan, xalqımızın yaddaşında abidələşən, Üzeyir Hacıbəyovun yaratdığı məktəbin ənənələrindən bəhrələnən, Qara Qarayev kimi görkəmli sənətkarların ziyası ilə işıqlanan nümunəvi vətəndaş-bəstəkar Tofiq Bakıxanov idi. Düzdür, o, 100 yaşını qeyd edə bilmədi. Lakin geriyə sətirlərə sığmayacaq dəyərli irs-miras buraxdı. 96 illik həyatını neçə-neçə işıqlı gəncə yol göstərməyə, milli bəstəkarlıq məktəbimizin zənginləşməsinə həsr etdi. Bir sözlə, bəstəkar, professor, Xalq artisti Tofiq Bakıxanov Azərbaycan bəstəkarlıq məktəbinin yaddaşında abidələşən şəxsiyyətə çevrildi.

O, Azərbaycan tarixində nümunəvi xidmətləri ilə iz buraxmış Bakıxanovlar nəslindən idi. Bu nəslin ən böyük simalarından biri olan Abbasqulu ağa Bakıxanov Tofiq müəllimin ulu babası olub. Bakıxanovlar ailəsinin tarixi ilə bağlı xatirələrində Tofiq müəllim bu nəslin keçdiyi yolu, Quba ilə bağlılığın necə yarandığını danışıb. Bu gün Əmsar kəndində Abbasqulu ağa Bakıxanovun ev-muzeyinin fəaliyyət göstərməsi də həmin tarixi bağların yaşadılmasının göstəricisidir.

Tofiq Bakıxanov 1930-cu ildə Bakıda, görkəmli tarzən, Azərbaycanın Xalq artisti Əhməd Bakıxanovun ailəsində dünyaya göz açıb. İlk musiqi təhsilini Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki onillik musiqi məktəbində skripka üzrə alıb. Daha sonra Azərbaycan Dövlət Konservatoriyasında iki ixtisas üzrə təhsil alıb, 1953-cü ildə Skripka, 1957-ci ildə isə Bəstəkarlıq ixtisasını bitirib.

Hələ uşaqlıq illərindən Üzeyir Hacıbəyov kimi dəyərli şəxsiyyətlə ünsiyyətdə olması onun sənət taleyinə böyük təsir göstərib. Tofiq Bakıxanovun xatirələrində Üzeyir bəyin ona verdiyi məsləhətlər xüsusi yer tutur. Üzeyir bəyin tövsiyəsi ilə Tofiq skripka, qardaşı Məmmədrza violonçel, bacısı Zivər isə fortepiano üzrə təhsil alıb.

Üzeyir bəyin məsləhəti ilə sənət aləminin qapılarını açan Tofiq Bakıxanov sonrakı illərdə özünə ustad hesab etdiyi Üzeyir Hacıbəyovu böyük hörmət və minnətdarlıqla yad edəcəkdi. Onun üçün Üzeyir bəy yalnız müəllim deyil, həm də mənəvi valideyn, ideal vətəndaş-sənətkar idi. Təsadüfi deyildi ki, 1948-ci ilin noyabrında dahi bəstəkarın vəfatından sonra təsis edilən "Üzeyir Hacıbəyov" təqaüdünə layiq görülən ilk tələbə də Tofiq Bakıxanov olub.

Tofiq müəllim xatırlayırdı ki, 1947-ci il sentyabrın 27-də Bakıda, Opera və Balet Teatrında Nizami Gəncəvinin 800 illiyi münasibətilə keçirilən təntənəli konsertdə onun da adı vardı. O illərdə 14 yaşı olan Tofiq Bakıxanov səhnəyə çıxır, Belçika bəstəkarı Anri Vyötanın "Skripka üçün konsert"ini ifa edir. İfa başa çatdıqdan sonra gözləri Üzeyir bəyi axtarır və onu gülümsəyən halda görür.

Bir neçə gün sonra konservatoriyaya qəbul imtahanları üçün sənədlərini təqdim edəndə yubiley konsertindəki çıxışının mükafatını alır. Ona deyirlər ki, Üzeyir bəy tapşırıb: "Sizi konservatoriyaya imtahansız götürürük".

Tofiq Bakıxanovun yaradıcılığında kamera-instrumental və simfonik janrlı əsərlər mühüm yer tutur. O, "Xəzər balladası", "Şərq poeması" və "Xeyir və Şər" baletlərinin müəllifidir. Bəstəkar Nəriman Məmmədovla birgə musiqili komediyalar yazıb.

Tar və müxtəlif musiqi alətləri ilə simfonik orkestr üçün konsertlər, sonatalar, simfonik muğamlar simfoniyalar, simfonik poemalar, kamera əsərləri, 100-dən artıq mahnı və romans yaradıb.

Tofiq Bakıxanov dünyasından söhbət açarkən onun Naxçıvana etdiyi səfərlərdən, bu qədim yurd yeri ilə bağlı zəngin təəssüratlarından danışmamaq mümkün deyil. Müsahibələrinə nəzər saldıqda görürük ki, onun muxtar respublikada keçirdiyi görüşlər, Naxçıvan Dövlət Universitetində keçdiyi ustad dərslərinin hər biri böyük əhəmiyyət daşıyıb. Bir sözlə, bu qədim diyar bəstəkar üçün yalnız ilham mənbəyi deyil, xatirələri, dostları, tələbələri və musiqi duyğuları ilə bağlandığı doğma ünvana çevrilib.

Bakıxanovun Naxçıvan sevgisi təsadüfi yaranmayıb. Bəstəkarın özünün söylədiyi kimi, onun Naxçıvana səfərləri həyatının ən gözəl xatirələri sırasında yer alır. O bütün səfərlərini maraqlı və yaddaqalan hesab etsə də, 2016-cı ilin oktyabrında Naxçıvana gəlişindən xüsusi təəssüratla qayıtdığını bildirirdi. Həmin səfərdə Naxçıvanın elm, təhsil və mədəniyyət mühitini yaxından görməsi, sənət adamları ilə görüşləri, vaxtilə dərs dediyi tələbələri yenidən görməsi bəstəkar üçün xüsusi məna daşıyıb.

Bu görüşlərin arxasında maraqlı bir sənət bağlılığı da dayanırdı. Naxçıvanda Əhməd ağa Bakıxanovdan – Tofiq Bakıxanovun atasından musiqinin sirlərini öyrənmiş sənətkarlarla qarşılaşmaq, ardınca öz keçmiş tələbələri ilə görüşmək bir növ üç nəsil arasında yaranan sənət körpüsünün təməllərini daha da möhkəmləndirirdi. Belə məqamlar göstərirdi ki, sənətdə zaman dəyişsə də, müəllimdən tələbəyə ötürülən ənənə öz yolunu davam etdirir.

Tofiq Bakıxanov Naxçıvanı yalnız xatirələrində yaşatmayıb. O bu sevgini notlara köçürüb. "Naxçıvan", "Nurlu Naxçıvan", "Arpaçay", "Batabat bağları" kimi əsərlər qədim diyara bəstəkar baxışının musiqidəki ifadəsidir. Onun "Naxçıvan" əsəri və "Naxçıvan təranələri" məcmuəsi də bəstəkarın bu diyara bağlılığının sənədləşmiş nümunələrindəndir.

Bu əsərlər içərisində "Naxçıvan" simfoniyettası xüsusi diqqət çəkir. Əsərdə Naxçıvanın yalnız təbiət gözəlliklərini deyil, onun tarixi və mənəvi yaddaşını da hiss etmək mümkündür. Əcəmi Naxçıvani, Hüseyn Cavid, Babək, Heydər Əliyev kimi şəxsiyyətlərdən tutmuş Batabatın təbiətinə qədər bir çox milli-mənəvi çalar bu musiqi dünyasında öz əksini tapır. Təsadüfi deyil ki, bu əsər haqqında yazarkən onun sanki Naxçıvanın tarixini və mədəniyyətini musiqi dili ilə danışdığı vurğulanıb.

Xatirələrdən öyrənirik ki, Bakıxanovun Naxçıvanla bağlı yaradıcılığının daha bir maraqlı səhifəsi "Həmişə bizimləsən" simfonik poemasıdır. Ümummilli Lider Heydər Əliyevə həsr olunan bu əsərin Naxçıvan səfərlərindən sonra yarandığı və ilk dəfə bəstəkarın 75 illik yubileyi münasibətilə məhz Naxçıvanda səsləndirildiyi qeyd olunur.

Tofiq Bakıxanovun 75, 80 və 85 illik yubileylərinin Naxçıvanda keçirilməsi də sənətkarla bu qədim diyar arasındakı qarşılıqlı mənəvi bağın bariz nümunəsidir.

96 illik ömrünün hər anını musiqiyə, sənətə və insanlara xidmətə həsr edən Tofiq müəllim çoxsaylı əsərləri ilə Azərbaycan musiqi xəzinəsini daha da zənginləşdirdi. Onun yaradıcılığında milli musiqi ənənələri ilə peşəkar bəstəkarlıq üslubunun vəhdəti xüsusi yer tutur. Baletlərdən simfoniyalara, simfonik muğamlardan konsert və sonatalara, kamera əsərlərindən mahnı və romanslara qədər uzanan yaradıcılıq yolu sənətkarın çoxşaxəli istedadının parlaq göstəricisidir.

Bəstəkar, professor, Xalq artisti Tofiq Bakıxanov yalnız əsərləri ilə deyil, pedaqoji fəaliyyəti, ziyalı mövqeyi, sənətə sədaqəti və insanlara münasibətilə də yaddaşlarda əbədi iz buraxdı. O, neçə-neçə gəncin sənət yoluna işıq saldı, onlara musiqinin yalnız peşə deyil, həm də böyük məsuliyyət və mənəvi missiya olduğunu aşıladı.

Bu gün Tofiq Bakıxanov aramızda yoxdur. Ancaq onun musiqisi, xalqımıza əmanət buraxdığı bir-birindən qiymətli əsərlər yaşayır. Onun yaratdığı əsərlər səsləndikcə, adı çəkildikcə, tələbələri və sənət dostları onu xatırladıqca sənətkarın ömrü davam edir. Çünki bu həyatda bəzi ömürlər var ki, onların sonu olmur – zaman keçdikcə, illər bir-birini əvəzlədikcə bu ömürlər silinməz yaddaşa və xalqın ruhunda kök salmış əbədi sənətə çevrilir.

✍ Məcid RƏŞADƏTOĞLU

## Oxucu məktubları

### Gənclərin ev sahibi olması üçün imkanlar yaradılır

Hörmətli redaksiya! Mənim 80 yaşım var. Hazırda Naxçıvan şəhərində yaşadığım üçotaqlı mənzili əkiz övladlarım dünyaya gələndə Ulu Öndər bağışlamışdı. Bu mənzildə beş övladım böyüdü, ailə qurdu, indi nəvə-nəticə sahibiyəm. Nəvələrimin dördü artıq ailə qurub, övladları var. Hər birinin də arzusu öz mənzilinə sahib olmaqdır. Ötən günlərdə mətbuatda yayılan xəbərlərdən öyrəndim ki, dövlət başçısı Naxçıvana səfəri zamanı bizim evlərə yaxın ərazidə gənclərin, yeni ailə quranların mənzillərlə təmin edilməsi üçün çoxmərtəbəli binaların inşa edilməsinə göstəriş verib, yaşayış kompleksinin təməlini qoyub. Buna çox sevindim. İndi elə zəmanədir ki, bir çox insan mənzil almaqda çətinlik çəkir, gənc ailələr kirayədə yaşamalı olurlar. Bu da ailənin dolanışığını çətinləşdirir. Dövlət başçısının belə bir addım atıb bu qədər mənzilin inşa edilməsinə göstəriş verməsini ürəkdən alqışlayıram. Prezidentimiz xalqını sevir, gənclərin qayğısına qalır. Həm düşmənin xarabazara çevirdiyi torpaqları bərpa etmək, həm də dövlətin hər guşəsini gülüstana çevirmək asan məsələ deyil. Bunu ancaq O, bacara bilərdi. Bacardı da. Çünki O, Heydər Əliyev kimi ürəyi xalqı ilə döyünən bir liderin oğludur. Allah dövlətimizi var eləsin. Gənc ailələrə də yeni mənzillərində səadət bəxş etsin ki, Azərbaycan üçün vətənpərvər övladlar böyütsünlər. Tanrı Prezidentimizi öz pənahında saxlasın!

**Validə MƏMMƏDOVA**
*Naxçıvan şəhər sakini*

### Naxçıvan şəhəri memarlıq baxımından ən nümunəvi şəhərlərdən birinə çevriləcəkdir

Hörmətli redaksiya! Dövlət başçısının 2026-cı il avqustun 11-də Naxçıvan Muxtar Respublikasına etdiyi növbəti səfəri, iştirak etdiyi açılış və təməlqoyma mərasimlərini, şəhərsalma və infrastruktur layihələri ilə tanışlığını bir naxçıvanlı kimi böyük qürur hissi ilə izlədim. Bu səfər bir daha nümayiş etdirdi ki, Naxçıvan hər zaman Prezidentimizin xüsusi diqqət və qayğısının mərkəzindədir. Gənc bir memar kimi məni ən çox sevindirən məqamlardan biri tarixi-mədəni irsə göstərilən yüksək həssaslıq və dövlət qayğısıdır. Çünki şəhərlər yalnız müasir binalarla deyil, əsrlərin yaddaşını yaşadan abidələri ilə də yaşayır. Bu baxımdan, dünya memarlıq tarixinin nadir incilərindən biri olan Möminə xatun türbəsinin bərpası və konservasiyası barədə qəbul edilən qərar memarlıq ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Naxçıvanın Baş planının hazırlanması, tarixi-mədəni obyektlərin konservasiyası, şəhərin müasir inkişaf konsepsiyasının milli memarlıq ənənələri ilə uzlaşdırılması gələcək Naxçıvanın daha gözəl və rahat şəhərə çevriləcəyinə inam yaradır. Müasir şəhərsalma prinsipləri ilə tarixi irsin qorunmasının vəhdəti fikrimcə, şəhərimizin özünəməxsus simasının daha da zənginləşməsinə xidmət edəcək.

Əminəm ki, Prezidentimizin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Naxçıvan yaxın illərdə təkcə Azərbaycanın deyil, bütün regionun ən müasir, ən yaşıl, ən təhlükəsiz və memarlıq baxımından ən nümunəvi şəhərlərindən birinə çevriləcəkdir.

Dövlət başçısına qədim yurdumuza göstərdiyi sonsuz diqqətə, tarixi irsimizin qorunmasına və dövlətimizin qüdrətinin daha da artırılması istiqamətində gördüyü misilsiz işlərə görə dərin minnətdarlığımı bildirirəm.

**Anar SADİQOV**
*gənc memar, Naxçıvan şəhəri*

### İnsanların rahatlığı təmin edilir

Hörmətli redaksiya! Mən uzun illərdir, Qaraçuq kəndində yaşayıram. İllərdir ki, kəndimizdən şəhərə köhnə avtobuslarla gedib-gəlmişik. Bəzən avtobusun vəziyyətinə baxıb deyirdik ki, kaş bir gün bizim kəndə də rahat, təmiz, müasir avtobuslar verilsin. Bu gün həmin arzunun gerçəkləşdiyini görmək, xüsusilə də yaşlı bir kənd sakini kimi məni çox sevindirir. Artıq Qaraçuq kəndinə yeni avtobuslar verilib. Avtobuslara ilk dəfə əyləşəndə adam istər-istəməz əvvəlki günləri xatırlayır. İndi hər şey daha rahat, səliqəli və müasirdir. Kondisioneri işləyir, salonu təmizdir, oturacaqları rahatdır. Əvvəllər marşrutların kondisioneri olmadığından isti yay günlərində yol getmək bizim üçün xeyli çətin olurdu. Əvvəllər kənd avtobusu şəhərin içərisinə qədər getmirdi, yalnız müəyyən yerə kimi gətirirdi. Oradan başqa marşruta minmək lazım gəlirdi. Məsələn, "Cahan" Ticarət Mərkəzinə getmək istəyən kənd sakinləri marşrut dəyişməli olurdular. Əlində bazarlığı olan, yaşı çox olan insan üçün bu heç də asan deyildi. İndi isə vəziyyət tamam başqadır. Yeni avtobusla birbaşa "Cahan" Ticarət Mərkəzinə qədər getmək mümkündür. Əvvəl marşrut dəyişirdiksə, indi bir marşrutla rahat şəkildə gedib-gəlirik. Bu bəlkə də, kənardan baxan üçün adi bir dəyişiklik kimi görünə bilər. Amma illərlə köhnə avtobuslarla gedib-gələn kənd sakini üçün bunun nə qədər böyük rahatlıq olduğunu yalnız yaşayan bilər. Prezident İlham Əliyevin iştirakı ilə yeni avtobusların istifadəyə verilməsi də bizim üçün əlamətdar hadisə oldu. İllərdir, gözlədiyimiz rahat nəqliyyat imkanının kəndimizə gəlib çatması bizi sevindirdi. İnsanların gündəlik həyatının asanlaşması, yaşlısının, gəncinin, uşağının rahat gedib-gələ bilməsi də inkişafın ən gözəl göstəricilərindəndir. Biz Qaraçuq sakinləri olaraq bu yeniliyi böyük sevinclə qarşılayır və cənab Prezidentimizə minnətdarlığımızı bildiririk.

**Əntiqə MƏHƏRRƏMOVA**
*Qaraçuq kənd sakini*



# NDU-da qəbul göstəricilərində yeni rekord: 2096 tələbə qəbul olunub




Naxçıvan Dövlət Universitetində tələbə qəbulunun artım dinamikası 2026-2027-ci tədris ilində də davam edib. Cari tədris ilində universitetin bakalavriat pilləsinə 2096 tələbə qəbul olunub. Bu göstərici ötən tədris ilindəki 1854 nəfərlə müqayisədə 242 nəfər və ya 13,1 faiz çoxdur. Bununla da bakalavriat üzrə qəbul göstəricisi yeni rekord həddə çatıb. Qəbul göstəricilərindəki artımla yanaşı, NDU-ya yüksək balla qəbul olunan abituriyentlərin sayında da müsbət dinamika qeydə alınıb.

600-dən yuxarı balla universitetə qəbul olunanların sayı 2025-2026-cı tədris ilində 152 nəfər olduğu halda, 2026-2027-ci ildə 166 nəfərə yüksəlib. Beləliklə, yüksəkballı tələbələrin sayında 14 nəfər və ya 9,2 faiz artım qeydə alınıb.

Universitetin ümumi tələbə kontingentində də son illərdə əhəmiyyətli artım müşahidə olunur. 2020-ci ildə, təxminən, 6 min nəfər olan tələbə sayı 2026-cı ildə 11 min 338 nəfərə çatıb. Beləliklə, altı il ərzində NDU-da tələbə kontingenti, təxminən, 89 faiz artıb. Universitetin qarşıya qoyduğu əsas hədəflərdən biri isə 2030-cu ilədək tələbə sayını 20 min nəfərə çatdırmaqdır.

Tələbə qəbulundakı artım əmək bazarının tələblərinə uyğun yeni ixtisas və təhsil proqramlarının yaradılması ilə müşayiət olunur. Son beş ildə NDU-da bakalavriat səviyyəsində 39 yeni ixtisas və təhsil proqramı açılıb.

Yeni istiqamətlər sırasında İnformasiya təhlükəsizliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi, Elektrik və elektronika mühəndisliyi, Kompüter mühəndisliyi, Regionşünaslıq (Avropa üzrə), Dövlət və ictimai münasibətlər, Psixologiya, Hərbi tibb, Tibb bacısı işi, Marketinq, Beynəlxalq ticarət və logistika, Maliyyə, Kimya, Coğrafiya, Fəlsəfə, Riyaziyyat, Yer quruluşu və daşınmaz əmlakın kadastrı, Bitki mühafizəsi, Kimya mühəndisliyi, Xüsusi pedaqogika, İbtidai sinif müəllimliyi, Məktəbəqədər təhsil və Təhsildə sosial-psixoloji xidmət kimi ixtisaslar yer alır. 2026-2027-ci tədris ilində də əmək bazarının dəyişən tələbləri nəzərə alınmaqla yeni ixtisasların açılması və təhsil imkanlarının genişləndirilməsi davam etdirilib. Bununla yanaşı, universitetdə tədris dillərinin şaxələndirilməsi də NDU-ya marağın artmasına təsir edən amillərdəndir.

Hazırda İnformasiya təhlükəsizliyi, Kompüter mühəndisliyi, Beynəlxalq münasibətlər, Tibb, İqtisadiyyat, Hüquqşünaslıq, Riyaziyyat müəllimliyi və Turizm işinin təşkili ixtisasları ingilis dilində, İnformasiya texnologiyaları ixtisası isə türk dilində tədris olunur.

Universitetdə beynəlxalq təhsil imkanlarının genişləndirilməsi istiqamətində də layihələr həyata keçirilir. İqtisadiyyat və Kompüter mühəndisliyi ixtisasları üzrə ikili diplom proqramlarının, eləcə də SABAH (Tibb) və SABAH (Tibb – ingilis dilində) proqramlarının tətbiqi tələbələr üçün yeni təhsil imkanları yaradır.

Əcnəbi tələbələr üçün yaradılan imkanların genişləndirilməsi də NDU-nun tələbə kontingentinin artımında mühüm amillərdən biridir. Beləliklə, yeni ixtisas və təhsil proqramlarının açılması, tədris dillərinin şaxələndirilməsi, ikili diplom və SABAH proqramlarının tətbiqi, eləcə də beynəlxalq təhsil imkanlarının genişləndirilməsi universitetə marağın artmasına və qəbul göstəricilərinin yüksəlməsinə şərait yaradır.

Mövcud göstəricilər NDU-da yalnız tələbə sayının deyil, universiteti seçən yüksək nəticə göstərən abituriyentlərin sayının da artdığını göstərir. Bakalavriat üzrə 2096 tələbənin qəbul olunması və 600-dən yuxarı balla qəbul olunanların sayının 166 nəfərə çatması universitetin son illərdə formalaşdırdığı təhsil imkanlarına marağın artdığını nümayiş etdirir.

NDU-nun qarşıya qoyduğu 2030-cu il hədəfi tələbə kontingentinin 20 min nəfərə çatdırılması nəzərə alınmaqla yeni ixtisasların yaradılması, müasir təhsil proqramlarının tətbiqi, tədris dillərinin genişləndirilməsi və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində işlərin davam etdirilməsi universitetin inkişaf strategiyasının əsas istiqamətlərindən olaraq qalır.

## Arpaçayda artan su ehtiyatı suvarma imkanlarını genişləndirir



Arpaçay su anbarında su ehtiyatları ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artıb. Avqustun 21-nə olan məlumata görə, anbarda 129,64 milyon kubmetr su ehtiyatı var. Ötən ilin müvafiq dövründə bu göstərici 72,18 milyon kubmetr təşkil edib. Ümumi tutumu 150 milyon kubmetr olan Arpaçay su anbarında su ehtiyatlarının yüksək olması Naxçıvanda suvarma mövsümünün daha səmərəli təşkilinə imkan verir. Anbarın suyundan, əsasən, Şərur, Kəngərli və Sədərək rayonlarında yerləşən kənd təsərrüfatı sahələrinin suvarılmasında istifadə olunur.

Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin Texniki istehsalat və suyun balansı şöbəsinin məsləhətçisi Çingiz Ağayev "Şərq qapısı"na açıqlamasında bildirib ki, cari ildə Arpaçay su anbarından, ümumilikdə, 14 min 52 hektar əkin sahəsinin suvarılması nəzərdə tutulub.

Onun sözlərinə görə, indiyədək təkrar suvarmalar da nəzərə alınmaqla 3300 hektar yaşıllıq, 4048 hektar yazlıq əkin və 4324 hektar bostan-tərəvəz sahəsi suvarma suyu ilə təmin edilib. Digər əkin sahələrinin suvarılması isə davam etdirilir. Çingiz Ağayev su ehtiyatlarının artmasını son dövrdə Naxçıvan ərazisində müşahidə olunan intensiv yağıntılar, eləcə də ötən ilin sonlarından formalaşan qar ehtiyatlarının tədricən əriməsi ilə əlaqələndirib. Dağlıq və dağətəyi ərazilərdən gələn su axınlarının artması Arpaçay su anbarında su ehtiyatlarının yüksəlməsinə səbəb olub. Hazırda anbarın su ehtiyatlarından Şərur rayonunun 55 kəndinin, Kəngərli rayonunun Qıvraq qəsəbəsi və bir sıra kəndlərinin, həmçinin Sədərək rayonundakı kənd təsərrüfatı sahələrinin suvarılmasında istifadə edilir. Bu ərazilərdə, əsasən, taxıl, yonca, tərəvəz, bostan və digər kənd təsərrüfatı bitkiləri becərilir.

Mütəxəssis bildirib ki, mövcud su ehtiyatlarından daha səmərəli istifadə olunması və su itkilərinin minimuma endirilməsi istiqamətində də tədbirlər görülür. Bu məqsədlə Arpaçay sağ və sol sahil kanallarının yenidən qurulması ilə bağlı layihənin həyata keçirilməsi nəzərdə tutulur. "Bu tədbirlərin həyata keçirilməsi suvarma suyunun daha səmərəli idarə olunmasına və kənd təsərrüfatı sahələrinin su təminatının yaxşılaşdırılmasına imkan verəcək", – deyə Çingiz Ağayev əlavə edib.

✍ **Zəhra VƏLİYEVA**

## Naxçıvan kikboksinqçiləri Qars turnirindən 34 medalla qayıdıblar



Naxçıvan idmançıları beynəlxalq arenada növbəti uğura imza atıblar. Türkiyənin Qars şəhərində 7 ölkənin idmançılarının iştirakı ilə keçirilən beynəlxalq kikboksinq turnirində muxtar respublikanı təmsil edən idmançılar 22 qızıl və 12 gümüş olmaqla, ümumilikdə, 34 medal qazanıblar.

Yarışın nəticələri barədə təəssüratlarını bizimlə bölüşən "Naxçıvan Araz" Kikboksinq Klubunun baş məşqçisi Elvin Qoçəliyev komandanın çıxışını yüksək qiymətləndirib: "Qarsda keçirilən bu beynəlxalq turnir idmançılarımız üçün həm böyük təcrübə, həm də məsuliyyət imtahanı idi. 35 idmançı ilə qatıldığımız yarışdan 34 medalla qayıtmaq uşaqların çəkdiyi əməyin, intizamlı məşqlərin və qələbə əzminin bəhrəsidir. Rinqdə nümayiş etdirilən əzmkarlıq göstərdi ki, klubumuz doğru yoldadır və sürətlə inkişaf edir. Əldə etdiyimiz uğur hələ son deyil, daha böyük zəfərlərin başlanğıcıdır".

Turnirdə 45 kiloqram çəki dərəcəsində qızıl medal qazanan Ələmdar Nəcəfov da yarışla bağlı təəssüratlarını bölüşüb: "Beynəlxalq turnirdə bayrağımızı ucaltmaq və qızıl medal qazanmaq sözlə ifadə olunmaz hissdir. Rəqiblərim güclü idi, lakin məşqçilərimin tapşırıqlarını düzgün yerinə yetirərək qələbə qazandım. Bu medalı üzərimdə əməyi olan hər kəsə həsr edirəm".

48 kiloqram çəki dərəcəsində qalib gələn Ülvü Əliyev isə təəssüratlarını belə ifadə edib: "Rinqə addım atarkən yeganə hədəfim Naxçıvana çempionluqla qayıtmaq idi. Qarsda keçirilən qarşılaşmalar kifayət qədər gərgin mübarizə şəraitində keçdi. Lakin sonadək əzm göstərərək ən yüksək pilləyə qalxmağı və qızıl medalı qazanmağı bacardım. Doğma diyara çempion olaraq dönmək mənim üçün böyük qürurdur".

47 kiloqram çəki dərəcəsində gümüş medala layiq görülən Davud Mütəllimli keçirdiyi döyüşlər barədə fikirlərini bölüşüb: "Gümüş medal qazanmaq böyük təcrübə olsa da, əsas hədəfim fəxri kürsünün ən yüksək pilləsi idi. Finala qədər inamla irəliləsəm də, həlledici qarşılaşmada cüzi xal fərqi ilə ikinciliklə kifayətlənməli oldum. Lakin bu nəticə məni daha əzmlə çalışmağa sövq edir. Səhvlərim üzərində işləyib gələcək turnirlərdə mütləq qızıl medalı doğma Naxçıvana gətirəcəyəm".

Eyni çəki dərəcəsində gümüş medal qazanan Xəyal Seyidov da yarışın onun üçün faydalı olduğunu qeyd edib: "Beynəlxalq səviyyəli yarışda medalçılar sırasında olmaq qürurvericidir. Gümüş medal qazansam da, bu turnir mənə böyük təcrübə qazandırdı. Gecə-gündüz çalışaraq gələcək yarışlarda daha yüksək nəticə göstərməyə çalışacağam".

Qars turnirində əldə olunan nəticə Naxçıvan kikboksinqçilərinin beynəlxalq yarışlarda uğurlu çıxışlarını davam etdirdiyini göstərir. 34 medal qazanan idmançılar qarşıdakı yarışlarda da yüksək nəticələr əldə etmək üçün hazırlıqlarını davam etdirəcəklər.

✍ **Elnurə CƏFƏROVA**

## *Elanlar*

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 26 nömrəli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 61.1-ci maddəsinin tələblərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsinin ləğv edilməsi və kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti barədə məlumat elan olunur.

Kreditorlar Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsinə qarşı öz tələblərini elan dərc edildiyi gündən 25 gün müddətində Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinə – AZ7000, Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 21 ünvanına təqdim edə bilərlər.

Ləğvedici: Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi.

***Ünvan: AZ7000, Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 21***
***Əlaqə telefonu: (036) 550-33-33***
***E-mail: info@nmaliyye.gov.az***

***

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 8 iyul 2026-cı il tarixli 24 nömrəli Qərarına əsasən "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxs ləğv edilmişdir. Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 25 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər. Ləğvedici: Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.

***Ünvan: Heydər Əliyev prospekti, 42A***
***Əlaqə telefonu: (+99436) 550-13-96***
***E-mail: aasmn.nmr@sosial.gov.az***

## *İtmişdir*

Kəngərli rayonu, Yurdçu kəndində yaşamış Abdullayev Mənsim Vəli oğlunun adına olan JN-219 nömrəli, 10209028 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Qasımova Məleykə Eynulla qızının adına verilmiş JN-1158A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Rəcəbov Vəzir İldırım oğlunun adına olan 391A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Quliyev Xəyam Oktay oğlunun adına verilmiş JN-267A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kənd sakini Əliyeva Pakizə Cəbrayıl qızına məxsus JN-266A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kənd sakini Məmmədov Yunis Məhərrəm oğluna məxsus JN-539B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qışlaqabbas kənd sakini Vəliyeva Xalidə Vəli qızına məxsus JN-823A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Yaycı kəndində yaşamış Babayev İbrahim Əkbər oğluna məxsus JN-111A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Məmmədsabir kəndində yaşamış Həsənov Yaşar Fərman oğluna məxsus JN-75B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini Həsənov Nəsib Abbas oğluna məxsus fərdi yaşayış evinin 1229 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Məmmədov Anar Kazım oğlunun adına olan xidməti vəsiqə itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Muradov Sahib Yusifəli oğlunun adına olan JN-1699A nömrəli, 10300058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Badamlı kəndində Şirinov Əsəd Kazım oğlunun adına verilmiş JN-0086 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kolanı kəndində Cahangirov Vəli Əli oğlunun adına verilmiş JN-266A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-142 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
**Baş redaktor:**
**RƏMZİ TAHİRLİ**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

**Çapa imzalanmışdır 00:00**
**Tiraj: 550. Sifariş № 179**

***Nömrəyə məsul:*** **Elnurə Cəfərova, Zəhra Vəliyeva**
***Dizayner:*** **Pərvin Sadiqov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*